**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TURİZMİN PERSPEKTİV İNVESTİSİYA LAYİHƏLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Musayev Asiman Aydın**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________ imza**

**"____" _______________ 2022-ci il**

# "QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TURİZMİN PERSPEKTİV İNVESTİSİYA LAYİHƏLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060403-Maliyyə

**İxtisaslaşma:** Maliyyə nəzarəti və audit

**Qrup:** 636


**Magistrant:**
**Musayev Asiman Aydın oğlu**
**______________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d. Quliyev Elsevər Nizami oğlu**
**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**
**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________imza**


**BAKI - 2022**

## Elm andı

Mən, Asiman Musayev Aydın oğlu and içirəm ki, “Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin perspektiv investisiya layihələri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# “QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TURİZMİN PERSPEKTİV İNVESTİSİYA LAYİHƏLƏRİ”


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Azad olunmuş ərazilərin inkişafı perspektivləri, öz torpaqlarına qayıdan əhalinin məşğulluğu, infrastrukturun qısa zamanda dövlət və özəl sektorun investisyaları hesabına bərpası, ekoturizm və aqroturizmin bərpasının vacibliyi mövzunu iqtisadi baxımından aktual edir.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialını araşdırmaq və bu sahənin inkişafı üçün perspektiv investisiya layihələrini müəyyənləşdirməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat zamanı təhlil, müqayisəli və analiz metodlarından istifadə ediləcək.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatda turizm, onun inkişafı, turizm və onunla əlaqəli sahələrə yatırılan investisiyalara dair müxtəlif yerli və xarici məqalə və ədəbiyyatlardan istifadə olunmuşdur. Xüsusən də, Dövlət Statistika Komitəsinin, Dünya Bankının statistik məlumatlarından, Dünya Turizm Təşkilatının statistik göstəriciləri və məlumatlarından geniş istifadə olunmuşdur.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqatın aparılması zamanı müəyyən məhdudiyyətlərlə üzləşilmişdir. Bölgənin 30 ildən sonra işğaldan azad olması, bölgəyə səfərlərin məhdudiyyətləri səbəbindən turizm potensialını yerindəcə, əyani şəkildə, iqtisadi rayonlara həm turizm sektoru baxımından, həm də ümumi iqtisadi-ekoloji baxımından dəymiş zərəri dəqiq şəkildə müəyyənləşdirmək olmamışdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqat zamanı işğal dövründə turizm obyektlərinə dəymiş zərər və onların qanunsuz istismarı araşdırılmış, turizmin inkişaf və bununla bağlı perspektiv investisiya layihələrinə dair təkliflər verilmişdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqat zamanı əldə edilən nəticələrdən həm Qarabağ bölgəsinin, həm də ölkə turizminin inkişafında və bu sahə ilə əlaqədar cəlb olunan sərmayələrdən səmərəli istifadə olunmasında yararlanmaq olar.**



***Açar sözlər: Qarabağ, Zəngəzur, turizm, investisiya, iqtisadiyyat***

**“PERSPECTİVES OF TOURİSM İN KARABAKH AND EAST ZANGAZUR ECONOMİC REGİONS İNVESTMENT PROJECTS "**


**SUMMARY**

**Relevance of the study: Prospects for the development of liberated areas, employment of people returning to their lands, the restoration of infrastructure in a short time through public and private sector investment, the importance of restoring ecotourism and agro-tourism make the topic economically relevant.**

**The purpose of the study: The main purpose of the study is to study the tourism potential of the economic regions of Karabakh and East Zangazur and to identify promising investment projects for the development of this area.**

**Research methods used: Analysis, comparative and analytical methods will be used during the research.**

**Research database: The study used various local and foreign articles and literature on tourism, its development, investment in tourism and related fields. In particular, the statistical data of the State Statistics Committee, the World Bank, the statistics and data of the World Tourism Organization were widely used.**

**Limitations of the study: Certain limitations were encountered during the study. The region's liberation from occupation after 30 years has not been able to accurately determine the tourism potential of the region on the spot, both in terms of the tourism sector and in terms of the overall economic and environmental situation.**

**Scientific novelty and practical results of the research: The research examined the damage caused to tourism facilities during the occupation and their illegal operation, and made proposals on the development of tourism and related investment projects.**

**Areas where the results can be used: The results obtained during the study can be used in the development of both the Karabakh region and the country's tourism and the effective use of investments in this area.**



***Keywords: Karabakh, Zangazur, tourism, investment, economy***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

**AR** Azərbaycan Respublikası

**ABŞ** Amerika Birləşmiş Ştatları

**AZTMU** Azərbaycan Turizm və Menecment Universiteti

**BXİ** Birbaşa xarici investisiyalar

**DSK** Dövlət Statistika Komitəsi

**ÜDM** Ümumi Daxili Məhsul

**KOS** Kiçik və orta sahibkarlıq

**KOB** Kiçik və orta biznes

# MÜNDƏRİCAT

**GİRİŞ.......................................................................................................8**

**I FƏSİL. TURİZM XİDMƏTİNİN İQTİSADİ ƏSASLARI...........................11**

**1.1** Turizm sektorunun iqtisadi əsasları və üstünlükləri........................................11

**1.2** Covid – 19 pandemiya şəraitində turizm sektorunun yeni reallıqları..............17

**1.3** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafında turizmin perspektivləri.............................................................................21

**II FƏSİL. MİLLİ TURİZM SEKTORUNUN İNKİŞAF MEYİLLƏRİ.........25**

**2.1** Azərbaycanda turizm sektorunun inkişaf dinamikası.......................................25

**2.2** Milli turizm sektoruna investisiya qoyuluşlarının qiymətləndirilməsi.............35

**III FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TURİZMƏ İNVESTİSİYALARIN CƏLB OLUNMASI......................................................................................................40**

**3.1** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiyaların cəlb olunma problemləri və perspektivləri...........................................................................40

**3.2** Turizm sahələrinə investisiyaların cəlb olunmasında beynəlxalq təcrübə........49

**3.3** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqro və eko turizmin investisya potensialı.................................................................................58

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.........................................................................65**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI............................................69**

Cədvəllərin siyahısı..........................................................................................**71**

Qrafiklərin siyahısı............................................................................................**71**

Şəkillərin siyahısı..............................................................................................**71**

Diaqramların siyahısı........................................................................................**72**

Sxemlərin siyahısı.............................................................................................**72**

# Giriş

**Mövzunun aktuallığı:** Turizm bir xidmət sahəsidir. Dünyanın bir çox ölkəsində ÜDM-nin formalaşmasının böyük qisminin xidmət sahələri olmasını nəzərə alarsaq, o zaman turizmin necə bir əhəmiyyətə malik olduğunu anlaya bilərik. Turizm ölkənin beynəlxalq arenada tanınması baxımından da böyük rola malikdir və ayrı-ayrı sivilizasiyaların, millətlərin bir birilə əlaqələrinin qurulmasına yaxından kömək edir. Eyni zamanda, millətlərə öz mədəni irsini, adət-ənələrini qoruyub saxlamağa, tarixi və mədəniyyət abidələrini ziyarətçilərə nümayiş etdirməyə, tanıtmağa kömək edir.

Azad olunmuş ərazilərin inkişafı perspektivləri, öz torpaqlarına qayıdan əhalinin məşğulluğu, infrastrukturun qısa zamanda dövlət və özəl sektorun investisyaları hesabına bərpası, ekoturizm və aqroturizmin bərpasının vacibliyi mövzunu iqtisadi baxımından aktual edir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Aparılmış tədqiqatda əsas məsələ iqtisadi rayonların turizm obyektlərinə dəymiş zərər nəticəsində investisiyaların cəlb olunması problemlərinin araşdırılması, onların həlli yolunda təkliflərin verilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialını araşdırmaq və bu sahənin inkişafı üçün  perspektiv investisiya layihələrini müəyyənləşdirməkdir. Bunun üçün mövcud ədəbiyyatlardan, elektron informasiya bazalarından istifadə edərək tədqiqat metodlarına uyğun şəkildə analiz və təhlillərin aparılması, bunlardan alınan nəticələr və təkliflərin verilməsi tədqiqatın vəzifələridir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm sahəsi seçilmişdir. Predmeti isə bu sahəyə yatırıla biləcək investisiyalar , bu investisiyaların cəlb edilməsi üçün ehtiyac duyulan iqtisadi münasibətlər, potensial layihələr, onların təhlili və inkişaf yolları təşkil edir.

**Tədiqatın metodları:** Tədqiqat zamanı bir neçə metoddan istifadə ediləcək. Bunlardan biri ən geniş yayılmış metodlardan biri təhlil metodudur. Tədqiqatda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının müharibədən əvvəlki vəziyyəti və qazanılan qələbədən sonrakı dövr üçün düşünülən layihələr araşdırılacaq və təhlil ediləcək.

İkinci metod müqayisəli metoddur. Bu zaman iqtisadi rayonların işğal altında qaldığı illərdəki turizm göstəriciləri ilə digər iqtisadi rayonlarımız arasında olan göstəricilər, xarici ölkələrdə olan turizm sistemi, turizmə cəlb olunan investisiya layihələri bir-birilə müqayisə ediləcək.

Üçüncü metod analiz metodudur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bölgələri üzrə ayrı-ayrı turizm potensialları və cəlb oluna biləcək investisiyalar araşdırılacaq. Ölkə üzrə turizmin müxtəlif sahələrinin (dağ turizmi, aqro turizm, eko turizm və s.) investisiya potensialı qiymətləndiriləcək.

**Tədqiqatın informasiya bazası:** Tədqiqatda turizm, onun inkişafı, turizm və onunla əlaqəli sahələrə yatırılan investisiyalara dair müxtəlif yerli və xarici məqalə və ədəbiyyatlardan istifadə olunmuşdur. Xüsusən də, DSK-nin, Dünya Bankının statistik məlumatlarından, Dünya Turizm Təşkilatının statistik göstəriciləri və məlumatlarından geniş istifadə olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqatın aparılması zamanı müəyyən məhdudiyyətlərlə üzləşilmişdir. Bölgənin 30 ildən sonra işğaldan azad olması, bölgəyə səfərlərin məhdudiyyətləri səbəbindən turizm potensialını yerindəcə, əyani şəkildə müəyyənləşdirmək mümkün olmamışdır. İqtisadi rayonlara həm turizm sektoru baxımından, həm də ümumi iqtisadi-ekoloji baxımından dəymiş zərəri dəqiq şəkil müəyyənləşdirmək olmamışdır. Eyni zamanda, DSK-nin Azərbaycanın qeyri-neft sektoruna daxil olan BXİ-nin ölkələr üzrə məbləği haqqında məlumatları təqdim etsə də, həmin vəsaitlərin yönəldildiyi sahələr haqqında məlumat açıq deyil. Azərbaycan Respublikasının Mərkəzi Bankı da illik tədiyə balansı ilə bağlı

məlumatında qeyri-neft sektoruna cəlb edilən BXİ-nin yalnız ümumi məbləğini təqdim edir, amma sahələr və layihələr barədə məlumat vermir.

**Təqiqatın elmi yeniliyi:** Tədqiqat zamanı işğal dövründə turizm obyektlərinə dəymiş zərər və onların qanunsuz istismarı araşdırılmış, turizmin inkişaf və bununla bağlı perspektiv investisiya layihələrinə dair təkliflər verilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Aparılmış tədqiqatlar bölgənin turizm sahəsi üçün perspektiv investisiya layihələrinin araşdırılması və özəl sektora təklif edilməsinə xidmət edir.

# I FƏSİL

# TURİZM XİDMƏTİNİN İQTİSADİ ƏSASLARI

## 1.1. Turizm sektorunun iqtisadi əsasları və üstünlükləri

Turizm biznesi xidmət iqtisadiyyatının ən böyük sahəsi olmaqla, dünyanın bir çox ölkələrinin ÜDM-nin əsas gəlir mənbələrindən biri hesab edilir. Ekoturizm, Agroturizm, Qastroturizm və bu kimi bir çox gəlirli sahələri olan turizm biznesi hər bir ölkə üçün məşulluq səviyyəsinin artırılması, daxili və xarici investisyaların cəlb edilməsi və xidmət infrastrukturnun inkişafını təmin edən sahədir. Eyni zamanda, hər bir xalqın tarixi -mədəni irsinin yaşamasında turizmin böyük xidmətləri vardır. İşğaldan azad edilmiş Qarabağ və Şərgi Zəngəzur iqtisadi zonalarında sosial-iqtisadi inkişafın təmin edilməsi mərhələli yanaşma tələb edir. Ərazilər minalardan təmizləndikdən sonra yol-nəqliyyat və kommunal infrastrukturunun bərpasını tələb edir. Növbəti mərhələdə dağıdılmış şəhər, qəsəbə və kəndlərin bərpa olunması və dövlət strukturlarının həmin ərazilərdə fəaliyyətinin tam bərpa edilməsidir. Üçüncü mərhələdə əhalinin bərpa olunmuş şəhər və qəsəbələrə köçürülməsi və məşğulluğun təmin edilməsidir. Bazar iqtisadiyyatı prinsiplərindən məlumdur ki, dövlət istəsədə belə hər kəsi işlə təmin edə bilməz, lakin bu işi həyata keçirə bilən özəl sektorun inkişafına əlaverişli şərait yarada bilər. Bu baxımnan Qarabağ və Şərgi Zəngəzur iqtisadi zonalarında özəl sektorun inkişafı və perspektivli biznes sahələr üçün əlverişli biznes mühitin yaradılması, Azərbaycan Dövlətinin prioritet iqtisadi siyyasətlərindən biridir. Turizm sahəsinin Qarabağ və Şərgi Zəngəzur iqtisadi zonalarında inkişaf etdirilməsi, bir neçə mərhələ üzrə aparılmalıdır ki, bu sahəyə davamlı investisiyaların cəlb edilməsi təmin olunsun. Qeyd olunan mərhələrdən birincisi, təhlükəsizlik və mülkiyyət hüququnun təmin edilməsidir.

Müasir dövrdə beynəlxalq turizmin inkişafı çox önəmlidir. Beynəlxalq turizm dedikdə əslində ziyarətçi iqtisadiyyatı kimi tanınan turistlərin, yəni ziyarətçilərin həyata keçirdikləri fəaliyyətlər nəzərdə tutulur. Turizm sektoru ziyarətçi iqtisadiyyatı daxilində baş verən bütün fəaliyyəti əhatə edə bilər. Bura oteldə

qalmaq, yemək sifariş etmək, turistik məkanları ziyarət etmək kimi birbaşa əlaqəli fəaliyyətlər daxildir. Bura həmçinin turistin yemək yediyi restorandan yeməyi çatdıran nəqliyyat şirkəti , yataq dəstlərinin təmizlənməsi üçün hotellə müqaviləsi olan camaşırxana şirkətləri kimi dolayı fəaliyyətlər də daxildir. Turizmin dolayısı ilə töhfələri böyük dərəcədədir və əslində turizm sənayesini müəyyən etmək və ölçmək o qədər də asan deyil.

Beynəlxalq turizmin əhəmiyyəti toplanan və dövlət gəlirlərinə qoyulan valyuta ehtiyatları vasitəsilə də nümayiş etdirilir. Ümumdünya Turizm Təşkilatının məlumatına görə 2018-ci ildə səyahət və turizm sektorunun ÜDM-ə birbaşa töhfəsi 2750,7 milyard dollar ( ÜDM-in 3.2 %-i) olmaqla, 2019-cu ildə bu göstərici daha çox artmış və 3.6 faiz təşkil etmişdir. 2020-ci ildə artımın daha çox olması gözlənilsə də COVİD-19 pandemiyasının təsiri ən çox bu sahədə hiss olundu və göstərici 3.7 faizə bərabər ola bildi ( https://www.unwto.org/tourism-statistics-data, 2020) .

Ölkəmiz turizmin inkişafı baxımından əlverişli coğrafi şəraitə, iqtisadi resurs ehtiyyatlarına sahibdir. Ölkənin strateji mövqeyi də turizmin inkişafında mühüm rol oynayır. Qədim ipək yolunun ölkə ərazisindən keçdiyini, Azərbaycanın qərb və şərq arasında əhəmiyyətli coğrafi ərazidə yerləşdiyini nəzərə alarsaq turizm baxımından və turizmə kapitalın cəlb olunması baxımından necə böyük fürsətlərin olduğunu görə bilərik. Qarabağın işğaldan azad olunması isə ölkə turizmi üçün çox böyük əhəmiyyət kəsb edir. Qarabağın dağlıq relyefi kurort turizmi baxımından çox əlverişlidir. Eyni zamanda Şərqi Zəngəzur iqtisadi rayonuna aid olan Zəngilan rayonunun həm Ermənistan, həm də İranla sərhəddə yerləşməsi, Naxçıvana quru yolu olacaq Zəngəzur dəhlizinin də məhz bu rayondan keçməsi bölgənin strateji baxımından da vacibliyini artırır.

Ölkə turizminin hazırki vəziyyəti nəyi əks etdirir? Müstəqillik illəri ərzində qəbul edilən qanun layihələri nə dərəcədə icra olunmuşdur? Hansı beynəlxalq turizm layihələri həyata keçirilmişdir? Turizmə cəlb olunan investisiyalar nə dərəcədə əhəmiyyətli olmuş və gəlir gətirmişdir? Qarabağın işğal altında qalması ölkə turizminə nə dərəcədə təsir etmişdir?  Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları

işğaldan azad edildikdən sonra turizm baxımından hansı perspektivləri vardır? Hansı investisiya layihələrini həyata keçirmək olar? Bu mövzuda beynəlxalq təcrübədən necə yararlanmaq olar? Tədqiqat zamanı bu kimi suallara cavablar axtarılmışdır.

Turizm dedikdə əsasən əyləncə və istirahət məqsədi xatırlanır. Müxtəlif səbəblərə və xüsusiyyətlərə uyğun olaraq turizmi müxtəlif növlərini fərqləndirmək olar. Turizmi aşağıdakı növlərə ayırmaq olar:

- Avtomobil turizmi
- İşgüzar turizm
- Velosiped turizmi
- Daxili turizm
- Su turizmi
- Uşaq turizmi
- Əlil turizm
- İntensiv turizm
- Atçılıq turizmi
- Mədəni turizm
- Sağlamlıq turizmi (tibbi turizm)
- Muzey turizmi
- Təhsil turizmi
- Kənd turizmi
- Aqro turizm
- Tələbə turizmi
- Eko turizm

Bundan başqa turizm sahələrini müəyyən təsnifatlara uyğun şəkildə də ayırmaq mümkündür (Sxem 1)

**Sxem 1: Turizmin müəyyən kateqoriyalara uyğun təsnifatı**




**Mənbə:** Turizmin növləri əsasında müəllif tərəfindən tərtib olunub

Turizmin inkişafında coğrafi, tarixi, mədəni amillər kimi iqtisadi amillər də bir o qədər əhəmiyyətə malikdir. Turizmin inkişafı ilə iqtisadi amillər öyrənilərkən bu qənaətə gəlmək olar ki, makro və mikro səviyyədə təhlillərdən istifadə edilir (Cədvəl 1) ( Soltanova H.B, 2015:s.77).

**Cədvəl 1: Turizmin inkişafında rol oynayan iqtisadi amillər**

| **Turizmə təsir edən iqtisadi amillər** | |
|---|---|
| **Makroiqtisadi amil (Makro səviyyə)** | **Mikroiqtisadi amil (Mikro səviyyə)** |
| **Beynəlxalq təsirlər** | **Lokal təsirlər** |
| Yerli iqtisadiyyatın idarəedilməsi sistemi<br>Maddi-texniki bazanın vəziyyəti<br>Ölkədə inflyasiyanın dərəcəsi | Turizm bazarı və tələb,təklif amilləri;<br>Turizm məhsulları və xidmətlərin dəyəri;<br>Turizm təsərrüfatında vergi göstəriciləri;<br>Turizmin marketinq strategiyası;<br>Turizm sahibkarlığının inkişafı |

**Mənbə:** Turizmə təsir edən amillər əsasında müəllif tərəfindən tərtib olunub

Ölkədə azad sahibkarlıq hüququnun yaradılması, rəqabət mühitinin təmin olunması turizmin inkişafı baxımından əsas addımlardır. Yuxarıda da qeyd etdiyimiz kimi turizm sahəsi müxtəlif məqsədlərə görə fərqlənir və bu məqsədlərə uyğun olaraq da müxtəlif turizm məqsədli müəssisələr formalaşır. Turizmin inkişafı üçün xüsusi mülkiyyət sistemi tətbiq olunmalıdır. Bu zaman hər bir müəssisə sahibi daha çox mənfəət əldə etmək məqsədilə öz şirkətini inkişaf etdirəcək. Rəqabət

qabiliyyətinin artması ilə müxtəlif layihələr, kampaniyalar həyata keçirib alıcıların marağını çəkməyə çalışacaq (Soltanova H.B, 2015:s.78).

Digər makroiqtisadi amil olan maddi-texniki baza da turizmin tərəqqisində əsaslı rol oynayır. Yerləşdirmə, qidalanma, daşınma, səhiyyə, təhlükəsizlik xidmətləri maddi-texniki baza ilə təmin olunur. Bu maddi-texniki bazaya turizm şirkətləri, hotellər, ticarət və ictimai-iaşə müəssisələri, nəzarət-xilasetmə xidmətləri, turist klubları, əyləncə məkanları, avtomobil şirkətləri və s. daxildir (Soltanova H.B, 2015:s.78).

Turizmin təsnifatlarından olan yerləşdirmə və yerləşdirmə müəssisələri turizmin maddi-texniki bazasında da mühüm yer tutur. Bu bazaya hotellər, motellər, hostellər, turist bazaları, istirahət evləri, kurortlar, sanatoriyalar və s. aid edilir. Eyni zamanda, xüsusəndə müasir dövrdə nəqliyyat xidməti də turizmin maddi-texniki bazasının əsaslarından biridir. Nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi hər bir ölkənin turizm sənayesi üçün əhəmiyyətli hesab olunur (Soltanova H.B, 2015:s.80).

İnflyasiya problemi turizmə də öz təsirini göstərir. Burada xidmətlərin, o cümlədən hotel və restoranlarda qiymətlərin artması, səyahət xərclərinin çoxalması, alıcılıq qabiliyyətinin azalması və ya itirilməsi ilə nəticələnir. Eyni zamanda, qiymət artımı ölkədən getmə turizminin də artması ilə nəticələnir(Soltanova H.B, 2015:s.83) .

Turizm bazarı və bazarda mövcud olan məhsul və xidmətlərin dəyəri ölkədə turizmin inkişafını göstərən əsas amillərdən hesab olunur. Azərbaycan turizm bazarının müasir dövrü onun quruluşu, inkişaf yolları, seçilməli olan düzgün istiqaməti, keyfiyyət və kəmiyyət müxtəliflikləri, rəqabətcil bazarın olması üçün lazımı məhsul və xidmətlərin göstərilməsi ilə səciyyələnir. Ölkənin geniş təbii sərvətlərindən turizm baxımından tam istifadə olunmur, infrastruktur vəziyyəti hələ də turizmin və qonaqpərvərliyin, yerli əhalinin inkişafına əngəl olur. Sahibkarların turizm sektorunda inamsız olması, Azərbaycanda turizm bazarında qiymətlərin yüksək olması ilə xarici vətəndaşların ölkəyə gəlməsinə maneələrə, daxili turizm bazarında isə çətinliklərə gətirib çıxarır. Qiymətlərin baha olmasına səbəb kimi

bazarda sağlam rəqabətin olmaması və inhisarçılığı göstərmək olar ki, bu və digər səbəblərdən dolayı bazar zəif inkişaf edən bazar sayıla bilər (Soltanova H.B, 2015:s.84-87).

Digər mikroiqtisadi amil vergi göstəriciləridir. Şirkətlər çalışmadan öncə öz biznes planlarını tərtib edirlər. Eyni zamanda turizm kampaniyaları əvvəlcə maliyyə planlarını qurarkən ödəyəcəkləri vergiləri də burada əks etdirir. Ölkədə turizmə qoyulan investisiyadan gələcək gəlirlərlə müqayisədə vergilərin yüksək olması turizm fəaliyyətinin inkişafına əngəl törədən amillərdən hesab olunur və sahibkarlara turizm sahəsinə investisiya qoymaqdan çəkindirir. Vergi güzəştləri isə turizm şirkətlərinin fəaliyyətlərini inkişafına şövq edir. (Soltanova H.B, 2015:s.90-91).

Müəssisələr öz imiclərinin formalaşmasında, təqdimatların həyata keçirilməsində maraqlı olmalıdırlar. Bunun üçün isə marketinq amili əhəmiyyətli olmalıdır. Turizm xidmətləri haqqında bukletlərinin nəşr edilməsi,tanıtım reklam çarxlarının, videoroliklərin çəkilməsi, təqdim olunan məshullar barədə foto-video məlumatların geniş şəkildə yayılması, turizm məhsulunun beynəlxalq sərgilərdə nümayiş edilməsi marketinq tədbirlərinə aiddir (Soltanova H.B, 2015:s.91-93).

Sonuncu mikroiqtisadi amil olan sahibkarlığın inkişafı turizm üçün çox önəmlidir. Sahibkarlarda stimulun formalaşdırılması, onlara fürsətlərin yaradılması turizmin inkişafında yeni yollar açılmasına gətirib çıxaracaqdır. Bu səviyyələrdə biznesə başlayan turizm kampaniyalarının müvəffəqiyyəti biznes mühitindən asılıdır. Biznes mühiti isə iqtisadi, sosial və hüquqi bazanın şərtləri ilə formalaşır (Soltanova H.B, 2015:s.96-100).

## 1.2 Covid – 19 pandemiya şəraitində turizm sektorunun yeni reallıqları

2019-cu ildən başlayaraq bəşəriyyətin bəlalarından birinə çevrilən koronavirus və ya elmi adı Covid-19 olaraq bilinən virusun turizmə, o cümlədən sosial-iqtisadi baxımından bu sahə üzrə fəaliyyət göstərən milyonlarla struktura da təsirləri yan keçmədi. Virus bu sahələrdə kriz durumunun yaranmasına səbəb olmuşdur. Bu böhran vəziyyəti turizm şirkətləri, digər əlaqəli iqtisadi sektorlar və təbii ehtiyatlardan necə istifadə etməli, ədalətli şəkildə bölüşdürülmə yollarını düşünməli olduğumuzu, iqtisadiyyata və həyata əhəmiyyətli nüfuzunu zəiflətmək və turizmi bərpası üçün isə bir sıra işlər həyata keçirilməli olduğunu göstərdi.

Dünya COVID-19 pandemiyası ilə görünməmiş qlobal sağlamlıq, sosial və iqtisadi fövqəladə vəziyyətlə üzləşdiyindən, turizm səyahət və turizm uçuşların dayandırılması, hotellərin bağlanması və demək olar ki, bütün ölkələrdə səyahət məhdudiyyətləri ilə ən çox təsirlənən sektorlar arasındadır. Buna görə də, Ümumdünya Turizm Təşkilatı (UNWTO) COVID-19 və turizmlə bağlı COVID-19-un dünya üzrə turizm sektoruna, bölgələr və istiqamətlər üzrə təsiri ilə bağlı məlumatları əks etdirən yeni tablosunu istifadəyə verib. Bura aşağıdakı məlumatlar daxildir:

- Beynəlxalq turistlərin gəlişləri
- Beynəlxalq turizm gəlirləri
- Təyinatların həssaslığı

1) Turizmin ÜDM-də payı
2) Turizmin ümumi ixracda payı
3) Beynəlxalq və daxili turizmin ümumi turizmdə payları

- Covid-19 böhranının turizmə təsirinin qiymətləndirilməsi
- Əvvəlki böhranların turizmə təsirinin qiymətləndirilməsi (https://www.unwto.org/tourism-data/international-tourism-and-covid-19, 2022).

Turizm dünya iqtisadiyyatının əsas sektorlarından biri və ən böyük ixrac kateqoriyalarından biri sayılmaqdadır. 2019-cu il göstəricilərinə görə turizm sektoru dünya ticarətinin 7 %- ni təşkil etməkdədir. Bəzi ölkələr üçün turizm sektoru ümumi daxili məhsulda 20 %-dən çox paya malik ola bilir. Ümumdünya turizm təşkilatının məlumatına əsasən COVİD-19 pandemiyasının təsiri nəticəsində dünya iqtisadiyyatına dəymiş zərərin məbləği 900 milyard ABŞ dolları ilə 1.2 trilyon ABŞ dolları arasında olacaqdır (https://www.unwto.org/tourism-data/international-tourism-and-covid-19, 2022).

Turizm bütün qitələrdə iqtisadiyyata, ictimai xidmətlərə və imkanlara təsir edən sektorlardan biridir. Bu dövr ərzində onun geniş dəyər zəncirinin bütün hissələri təsirlənmişdir. Turizm hər on işdən birini dəstəkləyir və həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş iqtisadiyyatlarda milyonlarla insanın dolanışıq vasitələrini təmin edir. Dünya üzrə 144 milyon işçini məşğulluqla təmin edən əmək tutumlu yerləşdirmə və qida xidmətləri sənayesi kimi turizmlə əlaqəli sektorlara əlavə olaraq, 100 milyona yaxın birbaşa turizm işi risk altında olmuşdur. Kiçik bizneslər (qlobal turizmin 80%-ni çiynində tutur) bu barədə xüsusilə həssasdır. Turizm işçi qüvvəsinin 54%-ni təşkil edən qadınlar, gənclər və qeyri-formal iqtisadiyyatda çalışanlar ən çox risk altında olan kateqoriyalar sırasındadır. Covid-19 pandemiyası dövründə bir sıra ənənəvi festivallar və toplantılar dayandırıldı və ya təxirə salındı, turizm əhəmiyyətli məhsullar, suvinerlər, əl işləri məhsulları və digər mallar üçün bazarların bağlanması ilə bu sahələrdə işləyən bir çox insanın gəlirləri azaldı.

Turizmin dönüş nöktəsi üçün isə aşağıda qeyd olunan beş prioritet istiqamətə diqqət yetirilməlidir:

1. Yaşayış vasitələrinə, xüsusən də qadınların məşğulluğuna və iqtisadi təhlükəsizliyinə sosial-iqtisadi təsirləri azaltmaq;

2. Mümkün olduqca daxili və regional turizmin təşviqi , mikro, kiçik və orta sahibkarlıq üçün əlverişli biznes mühitinin asanlaşdırılması və iqtisadiyyatın şaxələndirilməsi yolu ilə rəqabət qabiliyyətini və davamlılığı artırmaq;

3. Xüsusilə müvəqqəti olaraq işsiz olan işçilər və iş axtaranlar üçün rəqəmsal bacarıqlara innovasiya və investisiyaların təşviqi də daxil olmaqla innovasiyaları və turizmin rəqəmsal dəyişikliklərini inkişaf etdirmək;

4. Dayanıqlı, rəqabətədavamlı, resursdan səmərəli istifadə edən turizm sektoruna keçmək üçün davamlılığı və yaşıl inkişafı təşviq etdirmək. Bərpa üçün yaşıl investisiyalar digər imkanlar arasında qorunan əraziləri, bərpa olunan enerji mənbələrini, ağıllı binaları və dairəvi iqtisadiyyatı hədəfləyə bilər;

5. Davamlı inkişaf məqsədlərinə nail olmaq istiqamətində turizm sektorunu yenidən işə salmaq və koordinasiya və tərəfdaşlıq üçün dəyişiklikləri təmin etmək (https://www.e-unwto.org/doi/pdf/10.18111/9789284419401, 2020).

Turizmin yenidən canlanmasını və bərpasını təmin etmək üçün insanlar ilk pillədə durur, məsuliyyətli, əlaqələndirilmiş şəkildə səyahət məhdudiyyətlərini yüngülləşdirmək və aradan qaldırmaq üçün birlikdə işləyir. Bütün bunlardan əlavə ölkələr səyahət məhdudiyyətlərini tədricən qaldırdıqca və dünyanın bir çox yerlərində turizm yavaş-yavaş yenidən işə düşdükcə, sağlamlıq prioritet olmağa davam etməli və işçiləri, icmaları, səyahətçiləri qoruyan koordinasiyalı, eyni zamanda şirkətləri və işçiləri dəstəkləməklə möhkəm şəkildə sağlamlıq protokolları qurulmalıdır.

Yalnız kollektiv fəaliyyət və beynəlxalq əməkdaşlıq vasitəsilə biz turizmi transformasiya edə, onun 2030-cu il gündəliyinə töhfəsini, innovasiya və rəqəmsallaşmadan istifadə edən, yerli dəyərləri və icmaları əhatə edən və hamı üçün layiqli iş imkanları yaradan doğru keçidini inkişaf etdirə biləcəyik.

Koronavirus pandemiyası hələ də davam etməkdədir və pandemiyanın təsiri təbii olaraq Azərbaycan iqtisadiyyatından da yan keçməyib. Dünyanın bir çox ölkələrində olduğu kimi ölkəmizdə də bir müddət qapanmalar və müəyyən məhdudiyyətlər həyata keçirilmişdi. Xüsusi karantin rejiminin müddəti uzadılaraq məcburiyyətlər tətbiq olunmuşdur. Turizm sahəsində əksər şirkətlərində problemlər yaranıb, hətta bəziləri ya bağlanıb, ya da bağlanmaq təhlükəsi ilə üz-üzə qalıb.

Pandemiya ilə əlaqədar dövlətin müəyyən dəstəyi olsa da, daxili və xarici turizmin demək olar ki, dayanması şirkətlərin problemlərini həll etməyib və onlara böyük maddi ziyan dəyib. Xüsusən də hökumət tərəfindən dövlət sifarişli investisiyaların həcminin azalması və şəraitə uyğun olaraq xarici investorların da yatırımlar etməməsi turizm sektoruna ciddi zərər verdi.

AR Nazirlər Kabineti tərəfindən AR Prezidentinin sərəncamına əsasən 2020-ci ildə pandemiya və postpandemiya dövründə ölkə iqtisadiyyatına dəymiş zərərlərin azaldılması məqsədilə tədbirlər planı hazırlanmışdır. Həmin plana əsasən 2020-ci ildə iqtisadi artıma, sahibkarlığa dəstək tədbirləri, iş yerlərində sosial sabitliyin qorunması, iqtisadi fəallığın qorunması məqsədilə vergi stimullarının verilməsi, postpandemiya dövründə iqtisadi artımın yeni modelinin tətbiqi, makroiqtisadi və maliyyə sabitliyi və ölkə iqtisadiyyatının mühüm istiqamətlərində tədbirlər həyata keçirilmişdir (https://nk.gov.az/az/document/4367/, 2020).

Mövcud olan problemlərə baxmayaraq, Azərbaycan postpandemiya ərzində turizmin inkişafı üçün kompleks tədbirlərə əl atmalıdır. Ələxsus da Qarabağın işğaldan azad olunması ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm potensiallarının üstünlüklərindən yararlanmaq bu baxımından çox əhəmiyyətli olacaqdır.

Göründüyü kimi turizm sektoru həm qlobal baxımından, həm də ölkəmiz baxımından Covid-19 infeksiyasından ən böyük ziyan görmüş sahələrdəndir. Turizm sektorunun gələcək fəaliyyəti, onun yenidən əvvəlki durumuna qayıtması, əgər bu mümkün olarsa, bunların hamısı pandemiyanın nə qədər davam etməsindən asılıdır. Fakt odur ki, pandemiya bir çox sahələrdə olduğu kimi turizmdə də yeni meyarlar, yeni reallıqlar yaratdı. Ümid edək ki, bəşəriyyətin bəlasına çevrilən bu virus tez bir zamanda öz həll yollarını tapacaq. Əks halda iqtisadiyyatının istər böyük qismi, istər az bir qismi olsa belə turizmdən gələn gəlirlərdən ibarət olan ölkələr yeni çıxış yolları axtarmağa çalışmalıdır. Azərbaycanda Qarabağın işğaldan azad olunması nəticəsində ölkə turizminə və onun vasitəsilə iqtisadiyyata olacaq faydalarından yararlanmalı, pandemiyadan sonrakı dövr üçün planları tutulmalı,

hədəflər müəyyənləşdirilməli, daxildə sahibkarların, daxili investorların maraqlarını təmin etməli, ölkəyə xarici investorların turizm sahəsinə marağını artırmaqla daha çox kapital qoyuluşuna şərait yaratmalı, bunun üçün mühüm proqramlar həyata keçirilməlidir.

### 1.3 Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafında turizmin perspektivləri

2020-ci il sentyabrın 27-də başlayan vətən müharibəsində şanlı ordumuz tərəfindən qazanılan qələbə ilə Qarabağ 30 illik düşmən əsarətindən azad olundu. Ermənilər keçən dövr ərzində bölgəyə amansız divan tutmuş, onun bütün sərvətlərini talan etmiş, əsrarəngiz təbiətinə zərər vurmuşdur. Lakin 44 gün davam edən döyüşlərin nəticəsində zəfər haqqın tərəfində oldu.

Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli fərmanı ilə AR-da iqtisadi rayonların yenidən təşkili təsdiq edilmişdir. Bu fərmana əsasən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bölgüsü aşağıdakı cədvəldə göstərildiyi kimidir (Cədvəl 2).

**Cədvəl 2: Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarının yeni bölgüsü**

| Qarabağ iqtisadi rayonu | Şərqi Zəngəzur iqtisadi rayonu |
|---|---|
| Xankəndi | Cəbrayıl |
| Xocavənd | Kəlbəcər |
| Xocalı | Laçın |
| Şuşa | Qubadlı |
| Ağcabədi | Zəngilan |
| Ağdam | |
| Füzuli | |
| Tərtər | |
| Bərdə | |

**Mənbə:** https://president.az/az/articles/view/52389, 2021.

Qarabağ iqtisadi rayonunun mülayim soyuq, eyni zamanda nisbətən quru və isti iqlim şəraiti kurort-turizm təsərrüfatının və iqtisadi rayonun digər sahələrinin inkişafı üçün xüsusi şərait yaradır. İqtisadi rayonun əsas təbii sərvətləri polimetal

filizləri, mərmər, sement, tikinti daşı kimi tikinti materialları, təbii qaz olsa da, təbii balneoloji ehtiyatlari, meşələri, mineral bulaqları həm istirahət, həm də müalicə baxımından rayonun əsas turizm sərvətləri hesab olunur. İqtisadi rayon ərazisində yer alan Şuşa şəhəri eyni zamanda respublikanın əsas sağlamlıq və istirahət mərkəzlərindən biri hesab oluna bilər (https://www.virtualkarabakh.az/en/post-item/26/45/qarabag-tebieti.html, 2020).

Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycanın cənub-qərbində yerləşir. Qərbdən Ermənistan, Cənubdan İran İslam Respublikası ilə həmsərddir.Təbii ehtiyatlardan qızıl, civə, xromit, mərmər, perlit, xromit və s. faydalı qazıntılarla zəngin olması səbəbindən rayonun əsas təsərrüfat sahələrindən biri olaraq əlvan metallurgiya hesab olunur. Bundan əlavə Şərqi Zəngəzur iqtisadi rayonu həm də turistik əhəmiyyət daşıyır. Mineral bulaqları (Minkənd, İstisu), iqlim şəraiti, dağ meşələri kurort-rekreasiya baxımından olduqca dəyərlidir. Rayonda çay və göl şəbəkəsi də inkişaf etmişdir. Həkəri, Oxçuçay, Tərtər çayları Araz çayına tökülür. Azərbaycanda yeganə vulkan mənşəli göllər olan Böyük və Kiçik Alagöllər və Qaragöl Şərqi Zəngəzur iqtisadi rayonun ərazisində yerləşirlər, hansılar ki, turizm-rekreasiya baxımından çox böyük əhəmiyyətli hesab olunurlar. İqtisadi rayon mineral sularla da zəngindir. Şərqi Zəngəzur iqtisadi rayonunda mineral su ehtiyatları Azərbaycanın ümumi mineral su ehtiyatlarının təxminən 3də 1-ni təşkil edir. Ən böyük mineral su ehtiyatları müalicəvi əhəmiyyətə malikdir (Yuxarı və Aşağı İstisu, Turxun, Keşdək, Qoturlu (Kəlbəcər) və Minkənd (Laçın)). Bu isti bulaqların potensial ehtiyatları, onların yerləşdiyi ərazinin təbii füsunkarlığı kurort müalicə kompleksinin yaradılması üçün üstünlük verilən təbii amillərdir. İqtisadi rayonun meşə sahəsi 92000 hektar olmaqla, respublika meşələrinin 9 faizini təşkil edir. Bunların 72 faizi Kəlbəcər və Laçın rayonlarının turizm və rekreasiya meşələridir (https://www.virtualkarabakh.az/en/post-item/26/45/qarabag-tebieti.html, 2020).

Təəssüf ki, təmiz hava, zəngin təbii şəraitə malik meşələr, mineral su və bulaqlar, tarixi tikililər və s. erməni işğalçıları tərəfindən 20 ildən artıq bir dövr ərzində öz maddi mənfəətləri üçün istifadə olunub. Ərazidən keçən çaylar müxtəlif

maddələrlə çirklənib. Çirklənmiş su bu günümüzdə də ətraf bölgələrin əhalisi və təsərrüfatları üçün ciddi təhlükə yaradır.

İqtisadi rayonlaşdırmanın yenidən təşkili ölkə üzrə iqtisadi fəallığın və dövlət investisiyalarının artırılmasına, ölkənin regionlarında sahibkarlığın və iqtisadiyyatın tərəqqisinə, sosial-iqtisadi inkişafın artırılmasına, əhalinin gəlirlərinin differensiallaşdırılmasına və həyat şəraitinin daha da effektiv inkişafı üçün yeni imkanlar açır. Xüsusilə, mövcud qlobal təhlükəni və Covid-19 pandemiyasının yaratdığı vəziyyəti nəzərə alaraq, iqtisadi sektorun sürətli bərpası, iqtisadi tənəzzüllərin tez bir zamanda aradan qaldırılması və səmərəliliyin daha da yüksəldilməsi xüsusi önəm kəsb edir. Digər tərəfdən, xüsusi iqtisadi zonaların yenilənməsi , müharibədə qazanılan qələbədən sonra formalaşan obyektiv reallıq buna təsir edəcək. İnanırıq ki, yaxın gələcəkdə yeni iqtisadi rayonlarda yüksək texnologiyalı kapital iqtisadiyyatlarının və sahibkarlığın inkişafı üçün daha səmərəli mexanizmlərin hazırlanması təmin ediləcək.

Digər tərəfdən, yeni iqtisadi zona siyasi və milli təhlükəsizlikdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının özü də makroiqtisadi konsepsiya və revanşist ideyalara qarşı ehtiyat tədbiri kimi dəyərləndirilə bilər. Regionda təhlükəsizliyin bərqərar edilməsi üçün lazımı şərait yaradılır. Mövcud şəraitdə yeni bölgü əsasında müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisi sənaye, turizm, və kənd təsərrüfatı daxil olmaqla, müxtəlif iqtisadi sahələrin inkişafı üçün böyük təbii və iqtisadi resurslara və potensiala malikdir (https://president.az/az/articles/view/50474, 2021).

Hələ sovet dövründə də Azərbaycanda çoxlu kurortlar, müalicə mərkəzləri var idi. İşğal nəticəsində burada demək olar ki, hər şey dağıdılıb. İkinci Qarabağ müharibəsində əldə olunan qələbədən sonra regionda turizm və rekreasiya imkanlarından lazımınca yararlanmaq üçün əməli addımlar atılmaqla, bölgənin ölkə iqtisadiyyatına faydası üçün əlverişli şərait yaranmışdır. Qarabağ və Şərgi Zəngəzur torpaqları Ermənistan işğalından azad olunduqdan sonra Azərbaycan Dövlətinin prioritet inkişaf istiqamətlərindən biri həmin ərazilərdə yol və sosial infrastrukturları

tezliklə bərpa etməklə, məcburi köçkünlərin tarixi vətənlərinə qaydışını və özəl sektorun inkişafını təmin etməkdir. Sözügedən ərazilərin təbii- iqlim və iqtisadi xüsusiyyətlərini nəzərə alaraq, aqrobizneslə yanaşı turizm biznesinin də inkişafı, investsiya baxımından çox cəlb edici sahə hesab edilir (*https://www.ssu-conferenceproceedings.edu.az/pdf/2021-2.pdf, 2021).*

# II FƏSİL

# MİLLİ TURİZM SEKTORUNUN İNKİŞAF MEYİLLƏRİ

## 2.1. Azərbaycanda turizm sektorunun inkişaf dinamikası

Turizm istirahətin ən geniş yayılmış və populyar növlərindən biridir. İllər keçdikcə turizm sektoru daha da genişlənir. Artıq son dövrlərdə, xüsusəndə müstəqillikdən sonra turizm respublikamızın əhalisinin həyati ehtiyaclarından biri olmuşdur desək yanılmarıq. Amma Azərbaycan turizminin tarixi son 25-30 ildən ibarət deyildir. Tarixə nəzər salsaq, görərik ki, Azərbaycan ərazisinə müxtəlif dövrlərdə səfər edən bir sıra səyahətçilər olmuşdur. Onlar müxtəlif məqsədlərlə ölkəmizə səyahət ediblər. Azərbaycanda turizmin inkişaf tarixinə qısaca nəzər salsaq bunları müşahidə edəcəyik.

Azərbaycana ilk səfərlər ticarət, dini, siyasi və intellektual məqsədlərlə olub. Antik müəlliflərin fikrincə, Böyük İpək yolunun üzərində yerləşən Qafqaz Albaniyası (müasir AR-nın ərazisində yerləşən qədim ölkə) o dövr üçün bu səfərlərin reallaşmasında ən vacib rol oynayır.

Artıq orta əslərə doğru, IX-XV əsrlərdə Azərbaycan karvansaraları və onların müxtəlif bölmələri yaradılmışdır. Təbrizdə, Şamaxı və Dərbənd şəhərlərində yerləşən karvansaralar xüsusi önəm daşıyırdılar. Beləki bu şəhərlər öz tarixi abidələri, turistik və ələxsus da siyasi baxımından əhəmiyyət kəsb edirdilər ki, bu da şəhərlərdə digər bölgələrlə müqayisədə daha çox karvansaralar olması ilə nəticələnirdi. (Soltanova H.B, 2015:s.13).

19-cu əsrin sonu 20-ci əsrin əvvəllərində Bakıda artıq yeni hotel şəbəkələri istifadəyə verilməyə başlanmışdır. Bu dövrü artıq ölkəmizdə turizmin maddi-texniki bazasının intibah dövrü kimi xarakterizə edə bilərik. Hətta, 1908-ci ildə Bakıda Krim-Qafqaz dağ klubu açılışı olmuşdur ki, bununla da Azərbaycanda ilk dəfə olaraq təşkilati turizmin yaranmasını söyləmək olar. Müstəqillik dövrünə qədərki illərdə (1950-1991) isə turizmin maddi-texnoloji bazası daha da genişlənmiş, istirahət mərkəzləri, yeni turist bazaları, uşaq sağlamlıq düşərgələri yaranmışdır.

1950-ci ilin sentyabrında paytaxtda turist bazası yaradılmışdır. Eyni zamanda, növbəti 10 il ərzində respublikanın müxtəlif bölgələrində yeni turizm bazaları istifadəyə verilmişdir. Növbəti illərdə Azərbaycanda artıq kurort-sanatoriya xidmətləri də inkişafa başlamışdır (Soltanova H.B, 2015:s.15-18).

1987-ci il ölkəmizdə turizmin inkişafının pik həddi kimi xarakterizə oluna bilər. O ildə ölkəyə təxminən 300 min turist gəlmişdi. 10 min Azərbaycan vətəndaşı xarici ölkələrə, 300 min nəfəri isə SSRİ-nin fərqli-fərqli regionlarına turistik səyahətlərə çıxmışdır. Daha sonra isə Ermənistan-Azərbaycan münasibətlərində gərginliklərin başlaması, SSRİ-nin parçalanma mərhələsinə qədər qoyması turizm sahəsinə də ciddi təsir göstərdi. Həm SSRİ daxili, həm də beynəlxalq turizm səfərləri ləğv edildi. Məlum hadisələr, ölkələr arası əlaqələrin kəsilməsi turizmə də öz təsirini göstərmiş, sənaye tənəzzülə uğramışdır. Müstəqillik əldən etdikdən sonra da Ermənistanın Azərbaycana ərazi iddiaları ilə torpaqlarımızın işğalı, iqtisadi böhranlar, məcburi köçkün axını, qaçqın və məcburi köçkünlərin uşaqların istirahət və turizm bazalarına, sanatoriya və düşərgələrə yerləşdirilməsi turizm sənayesini tamamilə tənəzzülə uğratdı. 1990-cı illərin ortalarından ölkədə vəziyyət nisbətən sabitləşdi və bir çox iqtisadi, mədəni və digər sahələrdə islahatların həyata keçirilməsi öz bəhrəsini verməyə başladı.Bu islahatlar turizmdən də yan keçmədi. 1995-2001-ci illər ərzində bir sıra yeni turizm şirkətləri, istirahət mərkəzləri yaradıldı. İqtisadiyyatın yeni mərhələyə qədər qoyması ilə dirçəlişi yeni mehmanxanaların və istirahət obyektlərinin qurulma proseslərini canlandırdı (Soltanova H.B, 2015:s.20-22).

Müasir dövrdə artıq turizmin inkişafı hökumətin əsas prioritetlərindəndir. 1999-cu ildə qəbul edilmiş və müxtəlif dövrlərdə əlavələr və dəyişikliklər edilmiş və 2021-ci ildə yenilənmiş “Turizm haqqında” AR qanununda da qeyd edildiyi kimi turizm fəaliyyətinə kömək etmək, onun inkişafı üçün əlverişli şərait yaratmaq, turizm infrastrukturunu inkişaf etdirmək, turizm sahəsində yeni iş yerlərini yaratmaq, Azərbaycanın beynəlxalq səviyyədə turizm əhəmiyyətli bir ölkə kimi təsəvvür formalaşmasına çalışmaq dövlətin əsas tənzimləyici funksiyalarıdır. Eyni

zamanda turizmin inkişafına dair dövlət proqramlarının işlənib hazırlanması, qanun layihələrinin qəbul edilməsi və icrası kimi bu və digər məsələlər də qanunda təsbit olunduğu kimi dövlətin turizm sahəsində əsas vəzifələrinə aiddir (https://e-qanun.az/framework/49162 ,"Turizm haqqında" qanun, 2021).

2011-ci il Prezidentin sərəncamı ilə "Turizm ili" elan olunduqdan sonra bir sıra layihələr, beynəlxalq konfranslar həyata keçirilmiş, beynəlxalq turizmdə təbliğatla bağlı bir sıra ölkələrdən infoturlar təşkil edilmiş, ölkənin turizm sahələrinin inkişafı ilə bağlı investisiya layihələri icra edilmişdir.

Növbəti illərdə də, eyni zamanda bu kimi tədbir və layihələrin icrası davam etdirilmişdir. Bununla belə, respublikada zəngin təbii ehtiyat imkanlarından turizm məqsədilə istifadə olunmasında çətinliklərin mövcudluğu, təbii ehtiyat potensialından lazımi səviyyədə istifadə olunmaması, turizm sənayesi və qonaqpərvərliyin inkişafına təsir edən infrastrukturun hələ yaradılmaqda olması, istirahətlərin qısamüddətli təşkili, turizm sektoruna yatırım qoymaq istəyən yerli və xarici sahibkarların inamsızlığı və digər səbəblər ucbatından turizm bazarının formalaşması ilkin mərhələdədir və bu bazar inkişaf etməkdə olan zəif bazar kimi xarakterizə oluna bilər. Bu vəziyyət getmə və gəlmə turizminin nisbət göstəricisində daha aydın müşahidə olunur. DSK-nin təqdim etdiyi məlumatlara əsasən səyahət agentlikləri və turoperatorların son 5 ilin statistik göstəricilərinə nəzər salsaq, görərik ki, ölkəyə gələn turistlərin sayı ən çox 2018 və 2019-cu illərdə olmuş, müvafiq olaraq 12777 nəfər və 30950 nəfər təşkil etmişdir. Bu rəqəmlər isə həmin illərdə təşkil olunan bir sıra beynəlxalq tədbirlərin, idman yarışlarının ( formula 1, futbol üzrə avropa liqasının finalı) və başqa mötəbər tədbirlərin təşkili nəticəsində formalaşmışdır. Ölkədən gedən turistlərin sayı isə nisbətdə daha çoxdur və ən yuxarı göstərici 2018-ci ildə qeydə alınmışdır, 70945 nəfər ölkədən xaricə turist kimi səyahət etmişdir. 2020-ci ildə baş verən pandemiya təbii olaraq turizm sektoruna da təsir etmiş, gələn və gedən turistlərin sayı bir xeyli azalmış, müvafiq olaraq 2304 nəfər və 5901 nəfər olmuşdur. Bunlar ölkədən kapital axının hər il nə dərəcədə artdığını göstərir ( Cədvəl 3).

**Cədvəl 3: Qəbul edilmiş və göndərilmiş turistlər**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| **Qəbul edilmiş və göndərilmiş turistlərin sayı, nəfər** | **63,543** | **77,587** | **83,722** | **99,507** | **8,205** |
| o cümlədən: | | | | | |
| qəbul edilmiş | 8,949 | 13,455 | 12,777 | 30,950 | 2,304 |
| göndərilmiş | 54,594 | 64,132 | 70,945 | 68,557 | 5,901 |

**Mənbə**: www.stat.gov.az , AR-nın DSK məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

**Qrafik 1: 2008-2019-cu illər ərzində Azərbaycanda beynəlxalq turizmə olan xərclər**




**Mənbə**: Qlobal İqtisadi İndiqator məlumat bazası (CEİC Data), https://www.ceicdata.com/en/azerbaijan/tourism-statistics

Qlobal İqtisadi İndiqator məlumat bazasının məlumatlarına əsasən 1995-2019-cu illəri əhatə edən dövr ərzində Azərbaycanın beynəlxalq turizmə olan xərclərinə baxdıqda, görə bilərik ki, 2019-cu ildə xərclər 1.839 milyard ABŞ dolları təşkil etmişdir. Bu göstərici 2018-ci illə (2.354 milyard ABŞ dolları) müqayisədə 614 milyon ABŞ dolları və ya 21.9 faiz azalma deməkdir (Qrafik 1). 1995-ci ildən 2019-cu ilədək, 25 illik dövr ərzində olan müşahidə nəticəsində müəyyən olunmuşdur ki, bu göstərici orta hesabla 381 milyon ABŞ dolları təşkil etmişdir. Ən yüksək göstərici 2014-cü ildə 3.163 milyard ABŞ dolları olmaqla ən yüksək səviyyəsinə çatmışdırsa, 2002-ci ildə 110 milyon ABŞ dolları ilə ən minimum göstərici qeydə alınmışdır. Beynəlxalq turizm xərcləri beynəlxalq daşımalara görə xarici daşıyıcılara ödənişlər də daxil olmaqla, başqa ölkələrə gedən beynəlxalq ziyarətçilərin xərcləridir. Bu xərclərə, ayrı-ayrı təsnifatı əsaslandırmaq üçün kifayət qədər vacib olan hallar istisna

olmaqla, xaricə eyni gündə ziyarətçi kimi səyahət edən rezidentlərin xərcləri daxil ola bilər. Bəzi ölkələr üçün onlara sərnişin daşınması xərcləri daxil edilmir.

**Qrafik 2: 2008-2019-cu illər ərzində Azərbaycanda beynəlxalq turizmə olan xərclərin ümumi idxalda payı**




**Mənbə**: Qlobal İqtisadi İndiqator məlumat bazası (CEİC Data), https://www.ceicdata.com/en/azerbaijan/tourism-statistics

Həmin dövr üzrə beynəlxalq turizm xərclərinin ümumi idxalda olan payını diqqət yetirsək görərik ki, 2018-ci ildə beynəlxalq turizm xərcləri cəmi idxalın 13.85 faizini təşkil etmiş, 2019-cu ildə isə bu göstəricidə də azalma yaşanmış və 10.38 faizə bərabər olmuşdur. Müşahidə edilən 25 il ərzində bu göstəricinin ortalaması 7.76 faizə olmuşdur. Ən yüksək faiz göstəricisi 2017-ci ildə, ən aşağı isə 2004-cü ildə, müvafiq olaraq 16.38 faiz və 2.25 faiz qeydə alınmışdır (Qrafik 2).

**Qrafik 3: 2008-2019-cu illər ərzində Azərbaycanda beynəlxalq turizmdən olan gəlirlər**




**Mənbə**: Qlobal İqtisadi İndiqator məlumat bazası (CEİC Data), https://www.ceicdata.com/en/azerbaijan/tourism-statistics

**Qrafik 4: 2008-2019-cu illər ərzində Azərbaycanda beynəlxalq turizmdən olan gəlirlərin ümumi ixracda payı**




**Mənbə**: Qlobal İqtisadi İndiqator məlumat bazası (CEİC Data), https://www.ceicdata.com/en/azerbaijan/tourism-statistics

Qlobal İqtisadi İndiqator məlumat bazasının təqdim etdiyi dataların içərisində, eyni zamanda, 25 illik dövrü əhatə edən beynəlxalq turizm gəlirləri də öz əksini tapmışdır. Bu məlumatlara əsasən, 2019-cu ildə Azərbaycan beynəlxalq turizmdən 2.004 milyard ABŞ dolları gəlir əldə etmişdir ki, bu da ümumi ixrac göstəricisinin 8.48 faizinə bərabər olmuşdu. Bu dövr ərzində beynəlxalq turizm gəlirləri ortalama 317 milyon ABŞ dolları olmuş, ümumi ixracın ortalama olaraq 7.18 faizini təşkil etmişdir. Bu sahədən ən çox gəlir 2017-ci ildə 3.214 milyard ABŞ dolları olaraq, ən az gəlir isə 2001-ci ildə 57 milyon ABŞ dolları olaraq daxil olmuşdur (Qrafik 3 və 4) Beynəlxalq turizm daxilolmaları beynəlxalq daşımalar üçün milli daşıyıcılara ödənişlər də daxil olmaqla, beynəlxalq gələn ziyarətçilərin xərcləridir. Bu qəbzlərə təyinat ölkəsində alınan mal və ya xidmətlər üçün edilən hər hansı digər əvvəlcədən ödəniş daxildir. Ayrı-ayrı təsnifatı əsaslandırmaq üçün kifayət qədər vacib olan hallar istisna olmaqla, onlara eyni gündə ziyarətçilərdən daxil olan qəbzlər də daxil ola bilər. Bəzi ölkələr üçün onlara sərnişin daşınması üçün qəbz daxil edilmir.

**Diaqram 1: 2020-ci ildə Azərbaycan daxili turizmində ziyarətlərin məqsədlərə görə bölgüsü**




**Mənbə**: www.stat.gov.az, AR-nın DSK məlumatları əsasında müəllif tərəfindən hazırlanıb

2020-ci ildə daxili turizm göstəricisində də azalma müşahidə olunmuşdur. Beləki, ölkədaxilində səfər edən vətəndaşların sayı 2020-ci ildə 1.3 milyon nəfər olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 71 faiz və ya 3 milyon nəfər az deməkdir. Ölkədaxili səyahətlərin demək olar ki, yarısı (48 faiz) qohum, dost ziyarəti məqsədilə həyata keçirilib. Bu səyahətlərin yalnız 20 faizi istirahət məqsədi daşıyıb. Toplam daxili səfərlərin təxminən 60 faizi 2020-ci ilin yanvar və mart ayları aralığında baş tutub. Ölkədaxili səfərlərin şəhərlər üzrə bölgüsünə nəzər saldıqda isə bu səfərlərin 35.3 faizi Bakı şəhərinə baş tutub və bu baxımdan respublikanın paytaxtı ən yüksək göstəriciyə malikdir. Bakıya edilən səfərlərin təxminən beşdə biri işgüzar məqsədi daşıyıb (Diaqram 1).

**Cədvəl 4: Turistləri yerləşdirmə və ictimai iaşə (turizm) sektorunun 2016-2020-ci il üçün əsas göstəriciləri**

| Göstəricinin adı | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| **Ümumi daxili məhsul, cari qiymətlərlə, milyon manat** | 1424.1 | 1639.8 | 1812.5 | 1976.7 | 821.1 |
| **Turizm sektorunun ölkə üzrə cəmi ÜDM istehsalında xüsusi çəkisi, faizlə** | 2.4 | 2.4 | 2.2 | 2.4 | 1.2 |
| **Turizm sektorunda muzdla (əmək müqaviləsi ilə) çalışanların sayı, min nəfər** | 22.9 | 22.8 | 23.4 | 27.6 | 23,9 |
| **Mehmanxana və mehmanxana tipli müəssisələrin say** | 548 | 563 | 596 | 642 | 655 |

**Mənbə**: www.stat.gov.az , AR-nın DSK məlumatları əsasında müəllif tərəfindən hazırlanıb

Turizm sektorunun əsas makroiqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, 2020-ci ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə (turizm) sahəsi üzrə ümumi daxili məhsul (ÜDM) istehsalı 821.1 milyon manat təşkil etmişdir ki, bir il əvvəlki göstərici ilə müqayisədə 1155.6 milyon manat və ya 58.9 faiz azalma deməkdir. Sektorun ölkə üzrə ÜDM istehsalında xüsusi çəkisi 2016-2019-cu illər ərzində əsasən sabit ( 2016, 2017, 2019 -cu illərdə 2.4 faiz, 2018-ci ildə 2.2 faiz) qalmış, ancaq 2020-ci ildə əhəmiyyətli dərəcədə düşüş müşahidə edilmiş və 1.2 faizə bərabər olmuşdur. Turizm sektorunda muzdla çalışanların cəmi sayında 2019-cu ildə 2018 ilə müqayisədə 4.2 min artım qeydə alınmaqla 27.6 min nəfərə çatsa da, 2020-ci ildə bu göstəricidə də azalma müşahidə edilmiş (3.7 min nəfər), 23.9 min nəfər olmuşdur. 2020-ci il ərzində respublika ərazisində hotel və mehmanxanaların sayında da ciddi bir artım müşahidə edilməmişdir. Ölkə üzrə ümumi yerləşmə müəssisələrinin sayında əvvəlki illə müqayisədə cəmi 2 faiz artım müşahidə edilmişdir. Hazırda bu göstərici 655-ə bərabərdir. Onların əksəriyyəti – təxminən 32.5 faizi və ya 213-ü paytaxt Bakıda yerləşir (Cədvəl 4).

**Qrafik 5: 2019, 2021 və 2022-ci illərdə ölkəyə gələn turistlərin aylıq tendesiyası**




**Mənbə**: https://tourism.gov.az/uploads/documents/2022_statistika/22013_sta_arrival_report_january_2022.pdf

DSK-nin cari, 2022-ci ilin ilk ayında qeydə aldığı tendensiyaya nəzər saldıqda görərik ki, bu ilin yanvar ayı ərzində ölkəyə gələn turist sayı 74057 nəfərə bərabər olmuş, keçən ilin eyni ayı ilə müqayisədə 5 faiz artım müşahidə olunmuşdur. Ama 2019-cu illə müqayisədə bu göstərici 61 faiz azalmışdır. Bu da əsasən COVİD-19 pandemiyasının təsiri nəticəsində baş vermişdir (Qrafik 5).

**Cədvəl 5: 2022-ci ilin yanvar ayında ən çox əcnəbinin gəldiyi 5 ölkə**

| Ölkələr | Turistlərin sayı (nəfərlə) |
|---|---|
| **Rusiya** | 26131 |
| **Türkiyə** | 17838 |
| **İran** | 9589 |
| **Gürcüstan** | 4111 |
| **Səudiyyə Ərəbistanı** | 3072 |

**Mənbə**: www.stat.gov.az , AR-nın DSK məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Bu ilin ilk ayında turistlərin əsas hissəsi qonşu ölkələrdən olmuşdur. Yanvar ayı ərzində ən çox əcnəbinin gəldiyi ölkələrə isə 26131 nəfərlə Rusiya başçılıq edir. Türkiyə bu göstəricidə 17838 nəfərlə 2-ci, İran isə 9589 nəfərlə 3-cü ən yüksək göstəriciyə malik ölkələrdir. Digər qonşu ölkə Gürcüstan isə 4111 nəfərlə 4-cü yerdə qərarlaşmışdı. Qonşu ölkələrdən sonra isə ölkə ən çox turist axını Səudiyyə Ərəbistanından qeydə alınmış və 3072 nəfər təşkil etmişdir ( Cədvəl 5). Keçən 3 ilə baxdıqda onu da müşahidə edirik ki, 2019-cu illə müqayisədə dünyanın müxtəlif

regionlarından və ölkələrindən Azərbaycana turist axınında ciddi azalmalar müşahidə olunmuşdur. Bu ilin yanvar ayı ərzində 2019-cu ilin eyni dövrünə nisbətdə yalnız Səudiyyə Ərəbistanından Azərbaycana gələn əcnəbi vətəndaşların sayında ciddi miqdarda artım olmuş. 2019-cu ildə bu göstərici 1692 nəfərə bərabər idisə, 2022-ci ildə 81.6 faizli artımla 3072 nəfər təşkil etmişdir.

**Qrafik 6: 2019-2020-ci illərdə turizm xidmətləri dövriyyəsi, milyon ABŞ dolları**




**Mənbə**: **Mənbə**: www.stat.gov.az , AR-nın DSK məlumatları əsasında müəllif tərəfindən hazırlanıb

Ölkə üzrə turizm xidmətlərinin idxal və ixrac göstəricilərində də kəskin fərqlər yaranmışdır. 2019-cu ildə turizm xidmətləri ixracı 79 milyon ABŞ dolları fərqlə idxalı üstələmiş, 1791 milyon ABŞ dolları ixrac, 1712 milyon ABŞ dolları isə idxal olmuşdur. 2020-ci ildə bu göstərici kəskin şəkildə dəyişmişdir. Həmin il üzrə turizm xidmətlərinin ixracı 305 milyon ABŞ dollarına bərabər olmuşdursa, idxal göstəricisi 107 milyon ABŞ dolları çox olmaqla 412 milyon ABŞ dollarını təşkil etmişdir. Xüsusən qeyd etmək lazımdır ki, ölkə üzrə turizm xidmətlərinin ixracı və idxalı arasındakı saldo 2016-cı ildən bəri yalnız müsbətə bərabər olmuşdur. 2020-ci ildə göstəricinin mənfi olması pandemiyanın Azərbaycan turizminə və iqtisadiyyatına ciddi təsiri olduğunu göstərir (Qrafik 6).

## 2.2 Milli turizm sektoruna investisiya qoyuluşlarının qiymətləndirilməsi

Hazırda Azərbaycanda turizm özünün yenidəntəşkili prosesini yaşayır. Müstəqillikdən əvvəl Sovet İttifaqı Azərbaycanın turizm sektoruna aid obyektlərindən - hotellərdən, muzeylər və digər turistik yerlərdən əldə edilən maddi sərvətlərdən bəhrələnirdi. Hazırda isə artıq Azərbaycan müstəqillik əldə etdikdən sonra sənayenin əsas iştirakçıları, xüsusən də yerli investorlar və sahibkarlar ölkəni və onun turistik yerlərini unikal turizm məkanı kimi bazara çıxarmaq, onları dünya üzrə daha dolğun və ətraflı tanıtmaq üçün lazım olan imkan və ya biliyə mütləq şəkildə yiyələnməlidir.

DSK-nin 2009-2018-ci illərdə xarici investisiyaların dinamikasına diqqət yetirsək görə bilərik ki, bu dövr ərzində 2014-cü ilə qədər cəmi xarici investisiyaların həcmində artım tendesiyası yaşanmış və 2014-cü ildə ən çox xarici investisiya qeydə alınmışdır ( 11.698 milyon ABŞ dolları). Həmin il edilən investisiyaların 69 %-i və ya 8.049 milyon ABŞ dolları birbaşa investisiyalar, 31 %-i və ya 3.649 milyon ABŞ dolları isə portfel və digər investisiyaların payına düşüb. 2014-cü ildən sonra xarici investisiyaların həcminin bu dərəcədə azalmasına isə Rusiyada baş verən iqtisadi durğunluq səbəb olaraq göstərilir. Beləki, Rusiyada 2015-ci ildə ÜDM-in artım tempi mənfi 2.8 faiz təşkil etmişdir ki, bu da nəticə olaraq Azərbaycana və eyni zamanda digər ölkələrə birbaşa xarici investisiyaların daxil olmasında azalma müşahidə olunmasına gətirib çıxartmışdır (Cədvəl 6).

**Cədvəl 6: 2009-2018-ci illərdə xarici investisiyaların dinamikası, milyon dollar**

| İllər | Cəmi xarici investisiyalar | Birbaşa xarici investisiyalar | Portfel və digər investisiyalar | Birbaşa investisiyaların payı (%) | Portfel və digər investisiyaların payı (%) |
|---|---|---|---|---|---|
| 2009 | 5,469 | 3,037 | 2,432 | 56% | 44% |
| 2010 | 8,248 | 3,615 | 4,633 | 44% | 56% |
| 2011 | 8,674 | 4,294 | 4,380 | 50% | 50% |
| 2012 | 10,314 | 5,382 | 4,932 | 52% | 48% |
| 2013 | 10,541 | 5,976 | 4,565 | 57% | 43% |
| 2014 | 11,698 | 8,049 | 3,649 | 69% | 31% |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2015 | 10,719 | 7,483 | 3,236 | 70% | 30% |
| 2016 | 10,161 | 7,323 | 2,838 | 72% | 28% |
| 2017 | 9,121 | 5,714 | 3,407 | 63% | 37% |
| 2018 | 8,237 | 4,109 | 4,127 | 50% | 50% |
| **Cəmi** | **114,594** | **78,301** | **46,293** | **63%** | **37%** |

**Mənbə**: Azərbaycan DSK, https://www.stat.gov.az/source/system_nat_accounts/

2000-ci illərin sonlarında neft gəlirlərinin artması ilə ölkə iqtisadiyyatına investisiyalar daxili mənbələr hesabına artdı. Hökumət, əsasən, neft sənayesindən əldə edilən gəlirin qeyri-neft sənayesinin inkişafında rol oynarayaq bu sənaye sahələrinə investisiya etmək üçün addımlar atdı. Böyük sərmayə yatırımlarına ehtiyacı olan və daha böyük inkişafa işarə edən sektorlardan biri də turizm idi. Xüsusilə, 2009-2012-ci illər arasında turizm sektoruna qoyulan investisiyaların həcmi nəzərə çarpacaq dərəcədə artmışdır. Belə ki, 2009-cu ildə turizm sektoruna qoyulan investisiyalar 527,8 milyon manat olduğu halda, 2012-ci ildə kəskin şəkildə 1478,2 milyon manata yüksəlmişdir. 2010-2014-cü illər üçün Dövlət Proqramı, turizm sektoruna yerli investisiyalar sənayeyə qoyulan investisiyaların həcminin artmasına səbəb olmuşdur. Qrafikdən də göründüyü kimi turizmə qoyulan investisiyaların ən böyük hissəsi 2014-cü ildə - təxminən 2250,0 milyon manat olmuşdur. Növbəti illərdə isə bu göstəricinin getdikcə azaldığını görə bilərik (Qrafik 7).

**Qrafik 7: 2009-2018-ci illər ərzində turizmə qoyulan investisiyaların həcmi**




**Mənbə**: www.stat.gov.az , AR-nın DSK məlumatları əsasında müəllif tərəfindən hazırlanıb

İnvestisiyaların həcminin azalmasına səbəb kimi ölkədə turizm qiymətlərinin baha olmasını göstərmək olar. Beləki ölkədə fəaliyyət göstərən səyahət agentlikləri və turoperatorların əsas göstəricilərinə nəzər salsaq görə bilərik ki, 2010-2019-cu illər ərzində satılmış turizm yollayışlarının orta dəyəri hər il əvvəlki ilə nisbətən artmaqdadır. 2014-cü ildə cəmi xarici investisiyaların ən yüksək olduğu dövrdə bir turizm yollayışının orta dəyəri 676.70 AZN təşkil edirdisə, 2019-cu ildə bu göstərici təxminən 80 faiz artaraq 1223.01 AZN olmuşdur (Cədvəl 7).

**Cədvəl 7: 2014-2019-cu illər ərzində səyahət agentlikləri və turoperatorların əsas göstəriciləri**

| **İllər** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|---|
| **Satılmış turizm yollayışlarının sayı, ədəd** | 66,233 | 44,615 | 36,978 | 44,066 | 49,992 | 63885 |
| **Satılmış turizm yollayışlarının dəyəri, min manat** | 44,820.3 | 33,474.7 | 33 466,5 | 54612.2 | 66,570.7 | 78,132.2 |
| **Satılmış turizm yollayışlarının orta dəyəri, manatla** | 676.70 | 750.30 | 905.03 | 1239.32 | 1331.62 | 1223.01 |

**Mənbə**: Azərbaycan DSK, https://www.stat.gov.az/source/tourism/

2014-cü ildə dünya bazarında neftin qiymətinin kəskin düşməsi və ardınca Azərbaycan manatının devalvasiyası hökuməti qeyri-neft sektorunun inkişafına diqqət ayırmağa məcbur etdi. Ona görə də turizm sektorunun inkişafı üçün lazımı işlərin görülməsi səmərəli yollardan biri olmuşdur. Ona görə də yenilənmiş və müasir tələblərə cavab verən turizm infrastrukturu qurulması, miqrasiya, viza sistemlərinin qurulması, qeyri-neft sektorunun sürətli inkişafına nail olmaq, iqtisadiyyatın səmərəliliyini, rəqabət qabiliyyətini və innovativ inkişafının yüksəldilməsi məqsədilə Azərbaycan hökuməti mühüm addımlar atmışdır.

Turizmin inkişafına mane olan amillərin aradan qaldırılması üçün dövlət səviyyəsində bir sıra mühüm tədbirlərin həyata keçirilməsi zəruridir. Odur ki, dövlət turizm biznesinə vergi güzəştləri tətbiq etməli, turizm sektorunda fəaliyyət göstərən

müəssisələr gömrük rüsumları və ƏDV ödəməkdən azad olunmalı, turizm fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinə güzəştli kreditlər verməlidir.

Dünyanın əksər ölkələrində əlverişli vergi mühitində iqtisadi fəaliyyətin prioritet sahələrinə, o cümlədən turizm sektoruna investisiyaların artırılması üçün bir çox stimullaşdırıcı tədbirlər həyata keçirilir. Bu stimullar adətən ölkə daxilində kapital qoyuluşunun intensivləşdirilməsinə yönəldilir ki, bu da xarici investisiyaların axını ilə güclənir. Bu məqsədlə vergi dərəcələrinin aşağı salınması, habelə investisiya xərclərinin sürətlə aradan qaldırılması kimi müxtəlif növ vergi güzəştlərindən istifadə olunur.

2014-cü ildə "Turizm haqqında" AR-nın Qanununa turist vizalarının məzmunu ilə bağlı maddə əlavə edilmiş, turist vizası üçün qalma müddəti 30 günə qədər artırılmışdır. Bundan başqa, yeni qərar turizm baxımından böyük potensiala malik regionlarda turizm zonalarının genişləndirilməsi və yeni infrastrukturun inkişaf etdirilməsi məqsədi daşıyır. 2015-ci il sərəncamı ilə "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Azərbaycanı qış turizmi məkanı kimi tanıtmaq, hədəf turistlər üçün marketinqi gücləndirmək məqsədilə yaradılması təcrübəsindən Qarabağın yüksək dağ-kurort potensialından yararlanmaq üçün də istifadə etmək lazımdır. Kanat yollarının çəkilməsi, turizm əhəmiyyətli atraksionların yaradılması üçün də Qarabağın relyefi olduqca əlverişlidir. Xizək və kurort turizmin bərpası üçün bu təcrübələrdən istifadə etmək daha çox turistin cəlbinə və turizmdən daxil olan gəlirlərin artmasına kömək edəcəkdir (https://president.az/az/articles/view/14158, 2015 ).

Qarabağ və Şərgi Zəngəzur torpaqları erməni işğalından müzəffər ordumuz tərəftən azad olunduqdan sonra Azərbaycan Dövlətinin prioritet inkişaf istiqamətlərindən biri həmin ərazilərdə yol və sosial infrastrukturları tezliklə bərpa etməklə, məcburi köçkünlərin tarixi vətənlərinə qaydışını və özəl sektorun inkişafını təmin etməkdir. Sözügedən ərazilərin təbii-iqlim və iqtisadi şəraitlərini nəzərə alaraq, aqrobizneslə yanaşı turizm biznesinin də inkişaf etdirilməsi, investsiya baxımından çox cəlb edici iqtisadi layihə hesab edilir. Xüsusəndə, məşğulluğun

təmin edilməsi məqsədi ilə dağlıq ərazilərdə turizm sahələrinin inkişafı, beynəlxalq təcrübə və muasir yanaşmaların tətbiqini tələb edir. Turizm biznesinin işğaldan azad olunmuş Azərbaycan torpaqlarında inkişaf etdirilməsi ilkin mərhələdə, təhlükəsizlik, infrastrukturun, kənd və qəsəbələrin yenidən tikintisi, əhalinin qayıdışı və mülkiyyət hüququnun təmin edilməsi məsələlərinin həllini tələb edir. Növbəti mərhələdə, turizmə dövlət dəstəyinin artırılması və vergi güzəştlərinin tətbiqi, bu sahənin işğaldan azad olunmuş ərazilərdə daha dinamik inkişafına xidmət edəcək.

# III FƏSİL

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TURİZMƏ İNVESTİSİYALARIN CƏLB OLUNMASI

## 3.1 Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiyaların cəlb olunma problemləri və perspektivləri

AR-nın Prezidenti İlham Əliyevin 2020-ci il dekabr ayının 1-də Laçın rayonun işğaldan azad olunması ilə bağlı etdiyi müraciətində bildirib:

*" Bütövlükdə azad edilmiş bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatı, turizm potensialı çox böyükdür. Biz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirməliyik və əminəm ki, buna nail olacağıq"( http://ikisahil.com/post/181158-prezinent-ilham-eliyev-azad-edilmish-bolgelerin-iqtisadi-potensiali-kend-teserrufati-turizm-potensiali-chox-boyukdur) .*

İşğaldan azad olunmuş ərazilərin ən böyük potensialı turizm sektoru ilə bağlı olacaq. Turizmin növləri olan tarixi, istirahət və tibbi turizm üçün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində misilsiz imkanlar var. Bu ərazilərdən turizmdən əldə oluna biləcək gəlir bütün Azərbaycanın əldə etdiyi turizm gəlirlərindən qat-qat çox ola bilər. İkinci mühüm potensial sahə kimi aqrar sektora diqqət etmək lazımdır. Təkcə Qarabağ iqtisadi rayonunun Ağdam, Füzuli və Cəbrayıl rayonlarının kənd təsərrüfatına yararlı torpaq sahəsi 290 min hektara bərabərdi ki, bunun da üçdə ikisi və ya təxminən 193 min hektarı əkin üçün yararlıdır. Şərqi Zəngəzur iqtisadi rayonunun torpaqları isə həm əkinçilik, həm də heyvandarlıq üçün istifadə oluna bilər.

İşğaldan azad olunan və yeni bərpa olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm biznesinin inkişafı bir neçə məqsədi hədəfləməlidir. Birinci hədəf yerli əhalinin rəğbətini qazanmaq və yeni tikilmiş kurort və istrahət mərkəzlərinə cəlb etmək. İkinci hədəf xarici turistlərin cəlb edilməsi www.booking.com, və bu kimi vebsaytların xidmətindən istifadə etmək və yeni

istifadəyə verilmiş istrahət mərkəzlərinin xidmətlərini təklif etmək. Bunun üçün öncədən satış strategiyaları müəyyən edilməlidir və qiymətlər 10-15% qonşu ölkələrin turizm xidmətlərindən ucuz olmalıdır. Ümumiyyətlə satış strategiyaları uğurlu beynəlxalq və yerli təcrübələrə əsaslanmaqla, ərazi, iqlim, relyef, ənənələr, rəqabət və mövcud imkanları dəqiq nəzərə almalıdır. Azərbaycan daha çox Türkiyyə, Gürcüstan və Avropa İttifaqı ölkələri  turizm təcrübələrinə üstünlük verməlidir və burada tək özəl sektorun təcrübəsini yox, eləcədə turizm biznesinin dəstəklənməsi üçün qəbul olunan dövlət proqramlarıda araşdırılmalıdır və ölkə maraqlarına cavab verən proqramlara istinadlar edilməlidir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi inkişafı ilə bağlı bir sıra layihələrin hazırlanması, əraziyə böyük sərmayələrin qoyulması labüddür. Müharibədən sonrakı bərpa işlərinin əsas məqsədi davamlı iqtisadi artıma və sosial rifahın inkişafına nail olmaqdır. İşğaldan azad olunmuş torpaqlara yeni investisiyaların cəlb olunması, xüsusən də turizmlə əlaqəli investisiya layihələrinin həyata keçirilməsi zamanı bir sıra problemlərlə üzləşilə bilər. Bu problemlərə aşağıda qeyd olunanları aid etmək olar:

- Münaqişə bölgəsinə investisiyaların yatırılma risklərinin yüksək olması;
- İşğal dövrü ərzində Qarabağda turizm infrastrukturunun dağıldılması, bəzi turizm əhəmiyyətli obyektlərin və ehtiyatların tamamilə məhvi və istismar olunması;
- İnvestisiyaların səmərəliliyinin yüksəldilməsi problemləri;
- İnvestisiya mühitinin cəlbediciliyinin yüksəldilməsi problemləri;
- Turizm sektorunda kadr çatışmazlığı problemləri.

Birincisi qeyd etmək lazımdır ki, azad olunan torpaqlara investisiyaların, xüsusən də, xarici investisiyaların cəlb olunmasında risklərin yüksək olması ehtimalı vardır. Aydındır ki, bu ərazilər uzun müddətdir ki, Cənubi Qafqazın ən əsas münaqişə ocaqlarından biri olub. Razılaşmaq lazımdır ki, yenidən hər hansı bir müharibənin olması ehtimalı da qalmaqdadır. Belə bir vəzyətdə xarici investorların bu torpaqlara yatırım etməsi riskli ola bilər. Lakin dünya təcrübəsində bir sıra bu kimi problemlər yaşanıb və bu problemlər investisiyaların cəlbinə maneə olmayıb.

Bu risklər hər zaman vardır. İnvestorlar üçün maraqlı olan isə dövlətin onlara verdikləri təminatdır. Azərbaycanın aydın baxışı və siyasi iradəsi bu problemlərin qarşısını almağa imkan verəcəkdir.

Digər bir problem Qarabağ bölgəsində turizm infrastrukturuna, təbii sərvətlərimizə dəymiş zərərlərlə bağlıdır. Hələ torpaqlarımız işğal altında olan dövrdə belə bu ərazilərə bir sıra xarici investorlar öz sərmayələrini qoymuşdur. Azərbaycanın bütün etirazlarına baxmayaraq Qarabağın təbii sərvətləri xarici investorların yatırımları nəticəsində daha da qəddarlıqla istismar edilirdi.

Qarabağda xarici şirkətlərin filiallarını yaradan Ermənistan hökuməti həmin şirkətlərin rəhbərliyinə erməniləri gətirir və Qarabağın təbii sərvətlərini qanunsuz yollarla xarici ölkələrdə satışa çıxarırdı. Bu yatırımlardan əldə olunan gəlirlər isə ya Ermənistanın dövlət büdcəsinə daxil olur, ya da bir hissəsi "Dağlıq Qarabağ Respublikası"nın inkişafına sərf olunurdu. Təəssüflər olsun ki, bir sıra qərb dövlətlərindən, o cümlədən Rusiyadan olan bəzi iş adamları öz maddi maraqları naminə Qarabağda Ermənistanın işğalçılıq siyasətini və həmin ərazilərində ermənilərin törətdiyi talançılıq əməllərini davam etdirilməsinə göz yumur, bu bölgəyə öz yatırımlarını davam etdirirdilər.

Kəlbəcər rayonunun təbii sərvətləri arasında ehtiyatları 112,5 ton olan Söyüdlü (Zod) yatağı, 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları 20 ildən artıq müddət ərzində xarici investorların maliyyə yatırımları ilə Ermənistan tərəfindən talan edilib. Buna misal olaraq, 1998-ci ildə "Canadian First Dynasty Mines Ltd" şirkəti ilə Ermənistan hökuməti arasında bağlanan müqavilə ilə 2002-2003-cü illər arasında Zod yatağından 5 ton qızıl çıxarıldığını göstərmək olar. Azərbaycanla Ermənistan sərhədində yerləşən yatağın 73 faizi Kəlbəcər rayonu ərazisinin payına düşür. "First Dynasty Mines (FDM)" Söyüdlü yatağından 2003-cü ildə 2 tondan, 2004-cü ildə 2,5 tondan, 2005-ci ildə 3 tondan və 2006-cı ildə 5 tondan çox qızıl hasil etmişdir(Şəkil 1). İşğal altında qalmış ərazilərimizin təbii sərvətlərinin bu cür istismar edilməsi isə beynəlxalq hüquq normalarına və konvensiyalarına ziddir (*https://fed.az/az/hadise/qarabagi-talayan-xarici-sirketler-siyahi-43588*).

**Şəkil 1: Erməni eko-terroru. Mineral ehtiyatların qanunsuz şəkildə istismar olunması**




**Mənbə: https://www.facebook.com/USABaki/photos**

Ermənilər təbii ehtiyatlarımıza ciddi zərər vermiş, meşələrimizi, qoruqlarımızı dağıtmışdır. Hələ 1988-ci ildə Şuşa ərazisində yerləşən Topxana meşəsinin qırılması prosesi başlanmışdır. Meşə təsərrüfatları amansızca istismar olunmuş, yandırılmış, ağaclar kütləvi şəkildə qırılmışdır. Ağacların qırılması ilə odun ehtiyatları ermənilər tərəfindən ya Ermənistana aparılmış, ya da ixrac edilərək qanunsuz gəlir əldə olunmuşdur. Zəngilan rayonu ərazisində yerləşən 107 ha ərazini əhatə edən Bəsitçay dövlət qoruğu demək olar ki, məhv edilmiş, Ağdam, Füzuli rayonlarında yaşayış sahələri tamamilə dağıdılmışdır. Ağdam rayonunun işğal altında qalan bölgəsi "ruhlar şəhəri"nə dönmüşdür. (Şəkil 2)

**Şəkil 2: Ağdam rayonunun işğalda altında qalmış və işğalda olmuyan hissələri**




**Mənbə: [https://www.facebook.com/USABaki/photos](https://www.facebook.com/USABaki/photos)**

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf strategiyasının həyata keçirilməsini təmin etmək, investisiya mühitinin yaxşılaşdırılması problemlərinin həlli üçün idarəetmə, monitorinq və qiymətləndirmə mexanizmi, o cümlədən şəffaf və hesabatlı maliyyə mexanizmi yaradıla bilər. Bildiyimiz kimi ölkəmizdə yatırılan investisiyaların əksər hissəsi neft sektoruna aiddir. Bu da bu sahə üzrə həyata keçirilən yatırımların daha səmərəli və gəlirli olması ilə bağlıdır. Turizmə yatırılan investisiyaların həcmində də 2014-cü ildən sonra azalma olduğunu müşahidə edə bilərik (Bax: Qrafik 7). Bu kimi problemlərin həll edilməsi üçün işğaldan azad edilmiş ərazilərdə xüsusi tədbirlər planı hazırlanmalı, şəhər, qəsəbə və kəndlərin yeni əsas planlarına uyğun olaraq tikinti və abadlıq işləri aparılmalıdır. Ərazinin iqtisadi infrastrukturunu, o cümlədən yolları, meliorasiya və irriqasiya sistemlərini, elektrik enerjisini, qaz və su təchizatını, kanalizasiya sistemlərini və s. yaratmaq, bərpa etmək və inkişaf etdirmək vacibdir. İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın rəqabətədavamlı sahələrinin və məşğulluğun inkişafına üstünlük verilməlidir. Prioritetlərə həmçinin aşağıdakılar daxil edilməlidir: iqtisadi və sosial

məsələlər nəzərə alınmaqla məcburi köçkünlərin tədricən öz yaşayış yerlərinə qayıtması; insan kapitalının inkişafı; dövlət investisiyaları ilə yanaşı xarici və yerli investisiyaların cəlb edilməsi; sahibkarlığın, xüsusilə mikro, kiçik və orta biznesin inkişafına, o cümlədən innovativ həllər, yeni texnologiyalar, yaşıl və dairəvi iqtisadiyyat prinsipləri əsasında iqtisadiyyatın inkişafına dəstək.

Turizm sahəsində çalışan peşəkar kadrların sayı da ciddi müzakirə mövzusudur. Belə ki, DSK-nin məlumatlarına əsasən səyahət agentlikləri və turoperator fəaliyyəti ilə məşğul olan müəssisələrdə çalışan işçilərin sayı 2020-ci ildə cəmi 1464 nəfər təşkil etmişdir, bu da məşğul əhalinin sadecə 0.03 faizini təşkil etmişdir. Hətta 2019-ci illə müqayisədə bu göstəricidə 741 nəfərlə azalma qeydə alınmışdır.(Cədvəl 8)

**Cədvəl 8. Səyahət agentlikləri və turoperator fəaliyyəti ilə məşğul olan müəssisələrdə işçilərin sayı (2015-2020)**

nəfər

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|
| **İşçilərin sayı, nəfər** | **1,586** | **1,838** | **1,891** | **2,074** | **2,205** | **1,464** |
| işçilərin ümumi sayından: | | | | | | |
| dövlət müəssisələrində | 16 | 16 | 29 | 32 | 68 | 78 |
| qeyri-dövlət müəssisələrində | 1,570 | 1,822 | 1,862 | 2,042 | 2,137 | 1,386 |
| o cümlədən: | | | | | | |
| Xüsusi | 1,443 | 1,642 | 1,689 | 1,861 | 1,937 | 1,279 |
| Xarici | 27 | 78 | 57 | 65 | 125 | 69 |
| birgə | 100 | 102 | 116 | 116 | 75 | 38 |

**Mənbə: DSK, https://www.stat.gov.az/source/tourism/**

Bu göstəricilər ölkədə turizm sahəsində və azad olunmuş ərazilərdə yeni yaradılacaq turizm obyektlərində bu cür peşəkar kadrlara nə qədər ehtiyac olduğunu söyləməyə imkan verir. Xidmət sektorunda çalışanlar bölgəyə gələn turistlərə peşəkar xidmətlər göstərməklə turist axının sayının artmasına, gəlir imkanlarının daha da çoxalmasına səbəb olacaqdır.

Ölkə prezidenti İlham Əliyev istər yerli, istər beynəlxalq arendakı çıxışlarında hər zaman Qarabağda quruculuq və infrastrukturun bərpası ilə əlaqədar olaraq

keçirilən layihələrə və investorların cəlb olunması məsələlərinə toxunmuşdur. 2021-ci ilin oktyabr ayında BMT Baş Assambleyasının 76-cı sessiyası zamanı çıxışında da ölkə rəhbəri beynəlxalq enerji kampaniyalarını, sahibkarları işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" layihələrinə sərmayə qoymağa çağırıb. O, həmçinin bildirib ki, yaxın vaxtlarda ümumi gücü 700 MVt təşkil edəcək külək və günəş elektrik stansiyalarının tikintisi üçün iri beynəlxalq enerji şirkətləri ilə müqavilələr imzalanıb. Bu layihələrdən biri Şərqi Zəngəzur iqtisadi rayonunda həyata keçiriləcəkdir. 240 MVt gücə malik olacaq bu günəş elektrik stansiyası azad olunmuş torpaqlarda birbaşa xarici investisiyaların ən böyük layihəsi olacaqdır (*https://president.az/az/articles/view/53197*).

Qeyd etmək lazımdır ki, 2022-ci ilin yanvarında Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə 240 MVt gücündə olan Külək Elektrik Stansiyasının, fevral ayında isə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə 230 MVt-lıq Günəş Elektrik Stansiyasının təməli qoyulmuşdur. Bu investisiya layihələri bərpaolunan enerji potensialını maksimum dərəcədə artırmağa və ölkənin artan enerji tələbatını ödəməyə kömək edəcək (*https://president.az/az/articles/view/55623*).

Torpaqlarımızın azad olunması ölkə iqtisadiyyatının, turizmin və digər sahələrin inkişafına böyük fürsətlər yaradır. Hökumətin işğaldan azad edilmiş torpaqların bərpası ilə bağlı təcrübəsi də vardır. Beləki, 2016-cı ildə baş tutan Aprel döyüşləri zamanı azad olunmuş Cəbrayıl rayonun Cocuq Mərcanlı kəndi çox qısa zaman ərzində yenidən qurulmuş, nəqliyyat infrastrukturu, yeni müəssisələr və iş yerləri yaradılmışdır.

Bölgəyə investisiya yatırımları etmək üçün kifayət qədər səbəb vardır. Bol enerji mənbələri, dəmir filizi, qızıl yataqları, tikinti və inşaat əhəmiyyətli faydalı qazıntı yataqları və sair səbəblərdən artıq bir sıra ölkələr, xüsusəndə Türkiyə, İran kimi qonşu və Pakistan kimi dost və qardaş ölkələr, bir sıra nəhəng xarici şirkətlər Qarabağa sərmayə qoyuluşunda maraqlı olduqlarını bildiriblər. "Zəfər yolu" olan Füzuli-Şuşa avtomobil yolunun inşası zamanı Türkiyənin "Kolin inşaat Sanayi

Turizm ve Ticaret AŞ” və “Özgün Yapı Sanayi ve Ticaret AŞ” şirkətləri iştirak etmişdir (*https://www.aznews.az/news/inwork/271246.html*).

Eyni zamanda, Dövlət Turizm Agentliyi “Qarabağda turizm resurslarının təhlili və turizm potensialının mövcud vəziyyətinin qiymətləndirilməsi işlərinin satın alınması” tenderinin nəticələri əsasında Türkiyənin “Dampo Danışmanlık Araşdırma Mimarlık Planlama LTD” arasında 445 min 122 manat dəyərində müqavilə imzalanmışdır. Adından da göründüyü kimi müqavilə Türkiyə şirkəti tərəfindən Qarabağın turizm potensialının qiymətləndirilməsini nəzərdə tutur (*https://banker.az/turkiy%C9%99-sirk%C9%99ti-445-min-manata-qarabagda-turizm-potensialini-qiym%C9%99tl%C9%99ndir%C9%99c%C9%99k/*).

Qarabağı turizm destinasiyasına çevirmək olar. Əsrarəngiz təbiəti, tarixi yerləri, dağ kurortları, müalicəvi sanatoriyaları bu ərazilərə yatırılacaq investisiyaların gələcək perspektivlərini göstərir. Vaxtı ilə çox məşhur olan müalicə əhəmiyyətli “Şuşa sanatoriyası”, “İstisu sanatoriyası” və turist düşərgələrini yenidən canlandırmaqla həm bölgəyə çoxlu turist axını cəlb edib Qarabağın tarixini dünyaya tanıtmaq üçün, həm də turizmdən gələcək gəlirləri əhəmiyyətli miqdarda artırmaq üçün imkan yaranacaq. Qeyd etmək lazımdır ki, Qarabağın turizm potensialı və bölgəyə investorların cəlb edilməsi üçün təşkil olunan dövlət əhəmiyyətli tədbirlərin coğrafıyası da sürətlə genişlənir. 23-24 noyabr 2020-ci il tarixində Dubayda keçirilən “Gulf Travel Show” sərgisi zamanı Azərbaycan Turizm Bürosu Afrika, Avropa, Asiya və Amerikadan olan iştirakçılara Qarabağın turizm əhəmiyyətli və görməli təbii yerlərini, tarixi abidələrini təqdim edib. Sərgi çərçivəsində keçirilən görüşlər nəticəsində xarici tur operatorların gördükləri onların xüsusi marağını çəkmişdir (*https://travelnews.az/tag/gulf-travel-show/*).

Bundan əlavə Dövlət Turizm Agentliyinin Türkiyə və Pakistan nümayəndələri, Serbiyanın ölkəmizdəki səfiri ilə görüşərək işğaldan azad olunmuş ərazilərin turizm potensialı və bölgə infrastrukturunun bərpası, Qarabağın turzim destinasiyasına çevrilməsi yolunda atılacaq addımlarla bağlı müzakirələri baş tutmuşdur. Bu ilin fevral ayında isə Dövlət Turizm Agentliyinin nümayəndələri

Türkiyənin İstanbul şəhərində dünyanın ən böyük beynəlxalq turizm səyahət yarmarkalarından biri olan “EMİTT 2022” - "Şərqi Aralıq dənizi Beynəlxalq Səyahət və Turizm Sərgisi”ndə iştirak etmişdir. Sərgidə işğaldan azad olunan ərazilərin turizm imkanları sərgilənib. (https://report.az/turizm/qarabagin-turizm-potensiali-turkiyede-emitt-2022-sergisinde-teblig-olunur/).

Hökumət tərəfindən işğaldan azad olunmuş torpaqlarda həyata keçiriləcək layihələrə görə investisiya təşviqi sənədinin verilməsi də müzakirə olunur. Bildiyimiz kimi investisiya təşviqi sənədi yerli qanunvericilik aktları ilə tənzimlənir və bu sənədi alanlara böyük vergi güzəştləri edilir. Azərbaycan hökuməti ölkəyə sərmayələrin cəlb olunması və turizmin inkişafı üçün ən uyğun imkanları yaratmağı özü üçün məqsəd qoymuşdur. Turizm sahəsində fəaliyyət göstərən sərmayəçilərə (sahibkarlara) investisiya təşviqi sənədinin verilməsi bir neçə meyarlara əsaslanır:

1. İnvestisiya layihəsinin yerinə yetirildiyi iqtisadi fəaliyyət sahəsi – bu layihələr hotellərin, hostellərin, turizm əhəmiyyətli yerləşmə obyektlərinin tikintisi ilə bağlı olmalıdır;
2. İnvestisiya layihəsinin həcmi – investisiya layihələri sərmayə qoyulacaq məbləğ əsasında həyata keçirilir. İnvestisiya təşviqi sənədinin verilməsi üçün investisiyanın minimal məbləği hostellərdə 100.000 ( bir yüz min) AZN, iki və üç ulduz hotellərdə isə 2.000.000 ( iki milyon) AZN olmalıdır.
3. İnvestisiya layihəsinin yerinə yetirildiyi inzibati ərazi vahidləri – layihə Bakı, Abşeron, Sumqayıt və Gəncə şəhərlərindən başqa respublikanın digər qəsəbə, rayon və şəhərlərində həyata keçirilməlidir (https://tourism.gov.az/pages/tourism_investment_opportunities).

Hökumət tərəfindən verilən investisiya təşviqi sənədi sahibkarlara sənədi aldıqdan sonrakı 7 il müddətində vergi və rüsumların ödənilməsində bir sıra güzəştlər əldə edirlər. Sahibkarlar bu müddət ərzində əldə etdiklərini gəlirə və ya mənfəətə görə ödədikləri verginin 50 faizindən, əmlak vergisi, torpaq vergisi, eyni zamanda, idxala görə ödəməli olduqları ƏDV və gömrük rüsumlarından azad olurlar. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçiriləcək bütün

investisiya layihələrinə investisiya təşviqi sənədinin verilməsi də bölgəyə sərmaya axınını artıracaqdır. Bu məsələ hökümət qarşısında müzakirə olunmaqdadır. Eyni zamanda qeyd etmək lazımdır ki, AR Prezidentinin 2 fevral 2021-ci il tarixli təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sərəncamında da səmərəli vergi siyasətinin təmin edilməsi, investisiya mühitinin daha da yaxşılaşdırılması üçün işğaldan azad edilmiş ərazilərdə vergi güzəştlərinin tətbiqi və kapital qoyuluşuna görə gəlir vergisindən azadolma kimi bir sıra tədbirlər nəzərdə tutulur (*https://president.az/az/articles/view/50474*).

### 3.2 Turizm sahələrinə investisiyaların cəlb olunmasında beynəlxalq təcrübə

Turizmin inkişafı ilə bağlı çətinliklərdən biri maliyyə mənbələri və investor problemidir. Burada mətiqi bir sual yaranır ki, dövlət investisiyalarını nəzərə alınmasaq, hazırdımı özəl sektor turizm biznesinin işğaldan azad olunan ərazilərdə inkişaf etdirməyə? Hazırdımı Azərbaycanın bank sistemi və investsisya şirkətləri ölkə sahibkarlarını bu məsələdə dəstəkləməyə? İnvestorlarında təbii olaraq dövlətdən də, müəyyən gözləntiləri və tələbləri mövcuddur, bu ilk növbədə siyasi-iqtisadi sabitlik və mülkiyyət hüuququnun toxunulmamazlığına zəmanətin verilməsidir. Qeyd etmək uyğun olardı ki, İraq, Kosovo və Xorvatiya ölkələri münaqişədən sonrakı dövrdə digər böyük çətinliklərlə üzləşdilər. Belə ki, iqtisadi böhran, yüksək inflyasiya səviyyəsi, böyük büdcə kəsirləri, yüksək dövlət borcları, iqtisadi böhranlar və digər problemlər, hələdə həmin ölkələrdə dinamik sosial-iqtisadi inkişafa mane olmaqdadır. Ölkəmizdə mövcud olan siyasi-iqtisadi sabitlik, Respublikanın sosial-iqtisadi inkişafın təməlidir, lakin Azərbaycan, Livan dövlətinin ərazisi qədər bir ərazini sıfırdan bərpa etməlidir. Xarici analitik şirkətlərinin hesablanmasına əsasən ölkə növbəti 10 ildə 10 mlrd. ABŞ dolları vəsiti işğaldan azad olunmuş ərazilərin yenidən bərpa işlərinə sərf etməklə yalnız 100 000 vətəndaşın geri qayıdışını təmin edə biləcək. Turizm biznesinin inkişafı da həmin infrastruktur tikintilərin və yenidən bərpa işlərinin sürətindən çox aslıdır. Bundan

əlavə, kadr hazırlığı, turizmin dövlət inkişaf proqramları və dövlətin özünün bu sahəyə investisyaları, özəl sektorun bu sahəyə investisyalarını stimulaşdırılmalıdır. İnvestisiyalar isə sabitlik və təhlükəsizliyi sevir və istənilən risk amilindən qaçmağa çalışır. Ölkənin isə həmin risklərdən sığortalanmaq üçün hər zaman daha güclü ordusu və Ermənistanı sülh müqaviləsinə məcbur etmək üçün təsir mexanizmləri olmalıdır (*https://azertag.az/en/xeber/1649603*).

Qlobal təcrübəni münaqişədən sonrakı dövrdə fiskal siyasətlərində və büdcənin yenidən təşkilində ciddi addımlar atmış ölkələrdə görmək olar. Belə vəziyyətdə Azərbaycanda belə modeldən istifadə etmək daha rahatdır. Qlobal təcrübəyə görə, ilk növbədə keçmiş münaqişə zonasının əhalisini təşkil edən daxili insan kapitalı qiymətləndirilməlidir. Yerli investorlar passiv şəkildə xarici investorlardan və ya maliyyə instutlarından yardımlar gözləməməlidirlər. Səbr, əzmkarlıq, çalışqanlıq və yenilikçiliklə özlərinə dəyər qazandırmalıdırlar. Qeyd edək ki, turizmin idarə edilməsində düzgün və avtomatlaşdırılmış insan resurslarının idarə edilməsi sisteminin istifadəsi və tətbiqi çox vacibdir. İstedaddan düzgün istifadə istənilən biznes bölməsinin məhsuldarlığına və işinin keyfiyyətinə təsir edən əsas amillərdən biridir. Turizm xidmətlərinin göstərilməsi ehtimalı olan ərazilərdə, ilk növbədə turizm məlumat mərkəzlərini gücləndirməklə, turistlərin diqqətini turizm imkanlarına cəlb etmək vacibdir. Bunun üçün birinci addım olaraq turizmin inkişafı strategiyasını formalaşdırmaq və insan resurslarının inkişafı üçün vəsait toplamaq lazımdır. Beynəlxalq təcrübəyə əsasən, ölkədə turizm xidmətlərinin səviyyəsini yüksəltmək üçün Türkiyə və Avropa ölkələrində kadr hazırlığı sahəsində aparılan sərmayə qoyuluşu yolu ilə mehmanxana sənayesinin kadr təminatına yönəlmiş təlim proqramlarından istifadə etmək faydalı ola bilər. Qeyd edək ki, kadr məsələləri xüsusilə rayonlarda özünü daha qabardılır. Bu problemlərin qarşısını almaq üçün turizm şirkətləri öz proqramları əsasında peşəkarlarla işləməlidirlər. Turizm sənayesinin peşəkarları, turizm şirkətləri öz fərdi mövqeləri ilə əlaqədar olaraq autsorsinq və ya digər resurslardan istifadəyə təşviq olunsalar daha yaxşı olar. Vakansiyalar üçün namizədlərin tapılması turizm şirkətinin digər işçiləri üçün də

vacib şərtdir. Tələbələr təkcə şirkət fəaliyyətlərində iştirak edə bilməz, həm də tələbələr və onların bacarıqları haqqında öyrənmək üçün imkanlar yaratmaqla komandaya uyğunlaşmaq qabiliyyətinə görə qiymətləndirilə bilər. Bu, yeni işçilərin turizm şirkəti kateqoriyasına uyğunlaşdırılması problemini əhəmiyyətli dərəcədə həll edəcəkdir.

Biz artıq beynəlxalq təşkilatların, xarici ölkələrin nümayəndələrinin, münaqişədən sonrakı yenidənqurmada iştirak edən KOS-ların marağını hiss edirik. Bölgədə maraqlı olan bütün beynəlxalq təşkilatlar azad edilmiş ərazilərə öz missiyasına uyğun olaraq, kampaniyalar isə öz profillərinə uyğun olaraq sərmayə qoymağa hazırdırlar. Azərbaycan İsraildən nümunə götürərək diaspora investisiya modeli üçün yeni tətbiqlər təklif edir. Post-müharibə dövründə vençur kapitalı sərmayəsi, kraudfaundinq və kraudinvestinq azad edilmiş regionda texnologiya sektoruna marağı stimullaşdıra bilər. Birinci mərhələdə böyük sərmayələrin yatırılmasında maneələrin olduğunu nəzərə alsaq, KOB səviyyəsində investisiyaların cəlb edilməsi gələcəkdə daha böyük investisiyaların layihələrinə və daha çox investisiyalarına cəlb olunmasına öz töhfəsini verəcək. Tayvan və Yaponiya texnologiya sahəsində vençur kapitalı sərmayəçiləri olaraq bilinirlər. Dövlət-özəl tərəfdaşlıq yolu ilə infrastruktur layihələrinin həyata keçirilməsi özəl sektorun canlanmasına, səmərəliliyin artmasına gətirib çıxaracaq. Eyni zamanda son dövrlər elmin, texnologiyaların sürətli inkişafı xidmət sektorlarının daha da canlanmasına şərait yaratmışdır. Şübhəsiz ki, müasir dövr texnologiyalar dövrü sayılır və bu dövrdə həm idarəçilik baxımından, həm qonaqlara göstəriləcək xidmətlər zamanı keyfiyyətin yüksək olması üçün artıq dünya praktikasında geniş istifadə olunan yeni və qabaqcıl texnoloji yeniliklərin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Bunlar turizmin inkişafında xüsusi rola malik olmaqla turoperatorların işlərində daha səmərəli olmasına köməklik göstərir (*https://azertag.az/en/xeber/1649603*).

Qarabağda dağ və qış turizmini inkişaf etdirmək üçün böyük imkanların olduğunu artıq bilirik. Dünya ölkələrinin dağ turizmi ilə əlaqəli təcrübəsindən yararlanmaq da bu baxımdan əhəmiyyət kəsb edir. Belə təcrübələrdən biri Cənubi

Amerika ölkələrindən olan Argentinanın Mərkəzi And dağlarında yerləşən Aconcagua bölgəsini davamlı turizm məkanına çevirmək, özəl sektoru, sahibkarları bölgə turizminə investisiya yatırımına sövq edəcək Mendoza Yüksək Dağları Strateji Planıdır (MHMSP). İqlim dəyişikliyinə uyğunlaşma və təsirlərin yumşaldılması MHMSP-də qeyd olunan prosesin bir hissəsi olmaqla, bu plan texnologiyaların tətbiqinə dəstək mərkəzi rolunu oynayır. Dolanışıqları qar turizmindən asılı olan yerli icmalar iqlim dəyişikliyinin təsirinə qarşı həssasdırlar. Dağ kəndlərinin iqlim dəyişikliyinə uyğunlaşmasını təşviq etmək, onların həssaslığını azaltmaq üçün plana müxtəlif mexanizmlər daxil edilmişdir. Əldə olunan əsas nəticələrdən biri Mərkəzi Biokean Dəhlizinin bölgələrində infrastrukturun və xidmətlərin inkişafı üçün xarici investisiyaların təmin edilməsidir. Məsələn, Las Cuevas dağ kəndini Mərkəzi And dağlarında dağ idman mərkəzinə çevirmək; Puente del İnka şəhərini And dağlarının multikulturalizmi haqqında biliklərin yayılması üçün mədəni məkana çevirmək; Penitentes şəhərini macəra və qar turizmi üçün çoxfunksiyalı mərkəzə çevirmək və s. üçün işlər aparılmaqdadır (*Romeo R., Russo, L., Parisi F., Notarianni M., Manuelli S. və Carvao S., UNWTO. Mountain tourism – Towards a more sustainable path 2021: səh.49-50 Rome, FAO. https://doi.org/10.4060/*).

Əhalisi nisbətən az olan dağlıq bölgələrdə yerləşən daxili kənd ərazilərində əlverişli turizm infrastrukturunun yaradılması səmərəli ola bilər . Belə hallardan biri İtaliyanın cənubundakı Basilicata bölgəsindəki Dolomiti Lucane dağ silsiləsinin ətəyində yerləşən kiçik Castelmezzano kəndində yaşanmışdır. Kənd dəniz səviyyəsindən 750 m yüksəklikdə Gelipoli Koqnato Regional Parkının qorunan ərazisində yerləşir. 1980-ci il İrpinia zəlzələsindən ciddi zərər çəkmiş Castelmezzano kəndi, hal-hazırda İtaliyanın ən mənzərəli kəndlərindən biri hesab edilir. . Onun tarixi tikili hesab edilən evləri zəlzələdən sonra xüsusi landşaft planına əsasən bərpa olunub (Şəkil 3).

**Şəkil 3: Castelmezzano turizm bölgəsi, İtaliya**



**Mənbə: [https://www.locationscout.net/italy/20922-castelmezzano-with-drone](https://www.locationscout.net/italy/20922-castelmezzano-with-drone)**

Əraziyə ən çox cəlb olunan Volo dell'Angelo (Mələk Uçuşu) iştirakçıların Castelmezzanodan Pietrapertosa kəndinə və yenidən geriyə zip xətti ilə "uçması" ilə yenilikçi, az təsirli eksperimental turizm cazibəsi olan attraksion yerli əhalinin iqtisadi və mədəni artımına töhfə vermiş və həmçinin Via Ferrata (alpinistlər üçün sabit kəndir marşrutları), Percorso delle Sette Pietre (Yeddilərin Yolu) Ponte Nepalese (Nepal Körpüsü) kimi digər kiçik attraksionlar üçün hərəkətverici qüvvə olmuşdur (*Romeo R., Russo, L., Parisi F., Notarianni M., Manuelli S. və Carvao S., UNWTO. Mountain tourism – Towards a more sustainable path 2021: səh.71-72 Rome, FAO. [https://doi.org/10.4060/](https://doi.org/10.4060/)*).

Castelmezzano bələdiyyəsi tərəfindən özəl investorlarla əməkdaşlıq çərçivəsində qurulan yeni şirkət əsasən gəncləri işə götürmüş və biznes ildə təxminən 650 000 Avro (təxminən 751 034 ABŞ dolları) ümumi gəlirə çataraq böyümüşdür. Bu nəticələr birbaşa icma üzvlərinə layiqli məşğulluq təmin etməklə, İtaliyanın daxili kənd yerlərində əhali kütləsinin azalması tendensiyasını ləngitmişdir. Gənclərin aktiv işə götürülməsi, institusional aktyorların və biznes sahiblərinin ixtisaslarının artırılması və yerli əhalinin turistlərlə əlaqə saxlamağa hazır olması turizm təcrübəsini artıran ortaq və vahid müəyyənliklə nəticələnən mühüm amillər idi. Castelmezzano təcrübəsi yerli sakinlər tərəfindən turist xidmətlərinin idarə edilməsi ilə təkrarlana bilən, uğurlu icma əsaslı turizm brendidir.

O, təbii landşaft gözəlliyi, tarixi, mədəni və geoloji irs kimi endogen aktivləri və turizmin inkişafına icma üzvlərinin cəlb edilməsini özündı səciyyələndirir. Hesab edirəm ki, bu təcrübədən istifadə etməklə Qarabağın dağlıq ərazilərində investorların marağına səbəb ola və böyük miqdarda gəlir gətirə biləcək turizm imkanlarından yararlana bilərik.

Kəlbəcər ərazisinin dağlıq relyefini nəzərə alaraq İtaliyanın Castelmezzano bölgəsinin turizm təcrübəsindən faydalanmaq mümkündür. Beləki, Kəlbəcər rayonu da Castelmezzanoda olduğu kimi bir çox tarixi abidələrlə zəngindir. Burada qədim alban dövrünə aid abidələr,məbədlər, qədim körpü və qalalar mövcuddur. Bu tarixi əhəmiyyətli yerlərə ekskursiyaların təşkili yüksək gəlir gətirə bilər. Kanat yollarının çəkilməsi, turizm əhəmiyyətli atraksionların yaradılması üçün də Kəlbəcər rayonun relyefi çox əlverişlidir.

Azərbaycanın incisi, Qarabağın gözü hesab olunan, mədəniyyət paytaxtı Şuşa şəhəri eyni zamanda respublikanın əsas sağlamlıq və istirahət mərkəzlərindən biri hesab oluna bilər. Dəniz səviyyəsindən 1600 metr hündürlükdə yerləşən Şuşa şəhərini bir çox göstəricilərinə görə hətta dünyaca məşhur İsveçrənin Davos kurortu ilə də müqayisə etmək olar(https://www.myswitzerland.com/en/destinations/davos/) ( Şəkil 4).

**Şəkil 4: Şuşa şəhəri və Davos kurortu**



**Mənbə:** https://www.myswitzerland.com/en/destinations/davos/

Avropanın ən hündür dağ kurortu olan Davos, ətrafındakı gözəl dağ silsilə mənzərələri ilə seçilir. Davos, bütün sezonlar üçün, ən əsasda qış mövsumu üçün ixtisaslaşdırılmış dünya kurort mərkəzlərindən biridir. Burada istrahərdən başqa, havanın mualicəvi  xüsisiyətlərini nəzərə alaraq, tənəffüs yolları xəstəlikləri, allergiya və digər bu kimi digər xəstəliklərin müalicəsi üzrə ixtisaslaşmış nüfuzlu tibb klinikası fəaliyyət göstərir. Bundan əlavə Davos qəsəbəsi, məşur Davos İqtisadi Forumuna hər il ev sahibliyi edir. Forum zamanı inkişaf etmiş və inkişafda olan ölkə rəhbərlərinin çıxışları maraqla izlənilir və bir çox hallarda həmin forum iqtisadi yox, siyasi forum təəsuratı yaradır.

Əsas xizək sahəsindəki Parsen Davosun şimalında, Klostersdən qərbdə, mərkəzdə Veisluf zirvəsi  yerləşir. Davos həm də müalicəvi kurort kimi də məşhurdur — burada açılmış bir neçə nüfuzlu tibbi klinika tənəffüs yolları xəstəliklərinin, allergiyaların və dəri xəstəliklərinin müalicəsində ixtisaslaşıblar. Sağlamlıq mərkəzləri və möhtəşəm dağ relyefi ilə göz oxşayan Şuşa şəhərini də kurort mərkəzlərindən birinə çevirmək, istər sağlamlıq turizmi, istər dağ-kurort turizminin inkişafı nəticəsində ölkəyə kapital axınını artırmaq mümkündür.

Davos kurortunda mövcud olan kanar və xizək yollarının Şuşada qurula biləcək kurort mərkəzində də yaratmaq mümkündür. Həm kanat yolları vasitəsilə yuxarıdan, həm də xizək sürərək turistlər Şuşanın füsünkar təbiətini yol boyu seyr etmək imkanı əldə edəcəklər. Uzun illər Şuşanın təbii iqlim şəraitini tədqiq edən alimlər, bu şəhərin havasının insan orqanizminə müsbət müalicəvi təsir göstərməsi fikrində, yekdildilər. Məlumdur ki, Azərbaycan öz mədəni mərkəzinin bu təbii üstünlüyündən istifadə edərək, müalicəvi istrahat kurortlarını beynəlxlaq səviyyədə inşa etdirməlidir ki, gələcəkdə Şuşa şəhəri benəlxalq mədəni tədbirlərə yanaşı, iqtisadi-siyasi tədbirlərədə ev sahibliyi edə bilsin.

Türkiyə dünyada turizm baxımından seçilən ölkələrdən biridir. Ölkədə gəlirlərinin əhəmiyyətli hissəsi turizm hesabına formalaşır. Turizmə olan xərclərin böyük hissəsi, təxminən 80 faizi hökümət tərəfindən ödənilir. Sərmayələrin artımına kömək məqsədilə Turkiyə Turizm Bankı sahibkarlara kiçik faizlərlə kredit imkanları

təklif edir. Türkiyə dövlətinə məxsus olan torpaq sahələri investisiya növündən asılı olaraq, 50 ilədək qeyri-rezident sahibkarlara icarəyə verilə bilər. Qeyd olunanlara baxmayaraq, Türkiyə turizm biznesinin uğur qazanması, səmərəli biznes idarəetməsi, peşakar və ixtisaslı menecerlər və işçi heyyətin işə cəlb edilməsidir. Turistlərə göstərilən xidmətlərin yüksək keyfiyyətdə olması, xidmət sektorunda, əl-əxsus da turizm sahəsində çalışan işçilərin professionallığı Türkiyənin turizm sektorunun inkişafında mühüm irəliləyişlər göstərməsinə səbəb olub. Türkiyənin müxtəlif təhsil müəssisələrində turizm sahəsi üzrə təxminən 40 minə yaxın tələbə təhsil alır. Bu tələbələrə keçirilən tədris metodikaları üzrə onların öz sahələrində daha peşəkar olmasını üçün addımlar atılır. Düşünürəm ki, Azərbaycanda da xidmət sektoruna aid olan sahələrdə, turizm əhəmiyyətli obyektlərdə və digər qurumlarda inkişafa nail olmaq, xidmətin keyfiyyətinin daha yaxşı olmasına çalış üçün qardaş Türkiyənin bu təcrübəsindən istifadə etmək mütləqdir. Müasir dövr nə qədər yeni texnologiyalar, hətta robotlaşma dövrü olsa belə insan kapitalının əhəmiyyəti unudulmamalıdır. Yerli təhsil müəssisələrində peşəkar kadrların hazırlanması üçün, sonrasında onların məşğulluğunun təmin edilməsi yönündə addımlar atılmalıdır. (*Bayramov V., 2017,Azərbaycan Turizm Sektorunun inkişafi perspektivləri, CESD Tədqiqat qrupu, 26 səh*).

Gürcüstan dövləti də çox uğurlu turizm biznesinin inkişafı təcrübəsinə malikdir. Ölkə öz dağlıq və dəniz kənarı ərazilərini tam olaraq turizm biznesinin inkişafı üçün addoptasiya etmişdir. Qudauri, Borjomi və digər dağlıq ərazilərində tikilmiş kurortların, Azərbaycanda öyrənilməsi üçün çox faydalı təcrübələri vardır. Xüsusəndə, azulduzlu hotellərin tikintisinə ciddi əhəmiyyət verən Gürcüstan hökuməti, eyni zamanda bu sahə üzrə vergi güzəştlərinin tətbiqini də həyata keçirməkdədir. Keçmiş post-sovet ölkəsi Latviya da ulduzsuz və ya azulduzlu hotel və motellərin tikintisi, yolboyu kemping yerlərinin yaradılması işlərini təşkil etməkdə, eyni zamanda aqroturizmin inkişafı yönündə addımlarını atmaqdadır. Gürcüstan hökuməti, həmçinin, öz ekoloji-təmiz məhsulları ilə xarici turistlərin ölkəyə marağını cəlb etməkdədir. 2016-2020-ci illər ərzində Azərbaycana və qonşu

Gürcüstana gələn turistlərin sayını müqayisə etsək görərik ki, arada cidd bir fərq vardır. Cədvəldən də göründüyü kimi hər keçən ilə nisbətən Gürcüstan Respublikasına gələn turistlərin sayı əvvəlki ilə nisbətən 7-20 faiz aralığında artmaqdadır. Yalnız 2020-ci ildə pandemiya ilə əlaqədar olaraq bu göstəricidə əvvəlki, 2019-cu ilə nisbətən 80 faiz azalma müşahidə edilsə də yenə də 2020-ci ildə Gürcüstana gələn turist sayı Azərbaycana gələn turist sayından 54.7 dəfə çoxdur. ( Cədvəl 9).

**Cədvəl 9: Azərbaycan Respublikası və Gürcüstan Respublikasına səfər etmiş turistlərin sayı, nəfərlə ( 2016-2020)**

| İllər | Azərbaycan | Gürcüstan |
|---|---|---|
| **2016** | 8949 | 449400 |
| **2017** | 13455 | 540235 |
| **2018** | 12777 | 600279 |
| **2019** | 30950 | 643814 |
| **2020** | 2304 | 126118 |

**Mənbə:**Azərbaycan Respublikası Statistika Komitəsi və Gürcüstan Milli Statistika Ofisinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır

https://www.stat.gov.az/source/tourism/

https://www.geostat.ge/en/modules/categories/102/inbound-tourism

Avropanın öz turizm əhəmiyyətli yerləri ilə seçilən ölkəsi olan İtaliyada hökumət “ArtBonus” adlı vergi güzəştinin tətbiqi ilə özəl investorların ölkədə mədəniyyət obyektlərinə - teatrlara, musiqi salonlarına marağının artmasına, onları qoruması və bərpa edilməsinə töhvə verir. “ArtBonus” vergi krediti məhz bu fəaliyyətləri həyata keçirən fərdi sahibkarlara və ya digər biznes subyektlərinə verilir. Turizmin inkişafı üzrə fərqlənən digər bir avropa ölkəsi Fransada da hökumət tərəfindən bu sahənin inkişafı ilə bağlı vergi güzəştləri tətbiq olunmaqdadır. Fransada turizm sektorunda çalışanlar əsasən mövsümi işçilər olduğundan burada işçi qüvvəsi tez-tez yenilənir. Fransa hökuməti işçilərin müdafiəsi, onların problemlərin həll edilməsi üçün turizm sektorunda çalışan mövsümi işçilərə vergi güzəştlərini tətbiq olunmasını bildirən qanun layihəsini qəbul edib (*Bayramov V., 2017,Bakı, CESD Tədqiqat qrupu, 26 səh)*.

Yaponiya Milli Turizm Təşkilatı tərəfindən xarici turistlər üçün “Visit JAPAN Fare” və “Star Alliance Japan Airpass Fare” güzəştli aviabiletlər tətbiq edilir ki, bu biletlər vasitəsilə ölkəyə səfər edən xarici turistlər ölkədaxili səfərlər üçün aldığı biletlərə də güzəştlər əldə edə edirlər. Yaponiyada turizm sektoruna fəaliyyət göstərən agentliklər “insanların rifahı”nı üstün tuturlar. Yapon fəlsəfəsinə görə, ölkədə turizm istiqamətlərini inkişaf etdirməklə insanlar daha xoşbəxt və mənalı həyat sürə bilərlər. Eyni zamanda, aqroturizmin inkişafı yerli icmaların həyat səviyyəsinə, turizm istiqamətlərinə çevrilməsinə və nəticədə turizmlə yanaşı, bütün ölkənin iqtisadiyyatına töhfə verməlidir. 1990-cı illərin ortalarından etibarən yapon fermerləri tərəfindən “fermer mehmanxanaları” yaranmağa başlamışdır. Burada şəhərdən gələn turistlər təsərrüfatın gündəlik iş həyatını müşahidə edirlər və öz istəkləri əsasında müəyyən işlərə qatılırlar (*Bayramov V., 2017,Bakı, CESD Tədqiqat qrupu, 26 səh; http://edf.az/uploads/documents/turizm-sektorunun-inki%C5%9Faf-perspektivleri_vuqar-bayramov.pdf*).

## 3.3 Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqro və eko turizmin investisya potensialı

Artıq bildiyimiz kimi turizmin bir neçə növləri vardır. Bunlar arasında aqroturizm və ekoturizmin inkişafı üçün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında geniş potensial vardır. Bu potensialdan istifadə etmək, bölgədə aqro və ektoruzimin inkişafına nail olmaq üçün bir sıra addımlar atılmalı, bu sahələrə sərmayə qoyuluşlarına şərait yaradılmalıdır.

Ekoturizm ətraf mühitin ekologiyasına, təbii sərvətlərin mühafizəsini təmin edən və onun qayğısına əsaslanan turizmin bir növüdür. Ekoturizm dünya turizm bazarının təxminən 10 faizini əhatə edir. Ekoturistlər ətraf mühiti, onun problemlərini, səyahət etdikləri bölgələrin adət ənənələrini, yeməklərini və s. öyrənir. Beynəlxalq aləmdə ekoturistlər səyahət etdikləri bölgələrdə hotellərdə yox, çox zaman kənd evlərində, azulduzlu hotel və ya hostellərdə gecələyirlər. Buna görə

də bu sahənin inkişafı, xüsusən də xarici ölkələrdən ekoturistləri cəlb emək üçün bu kimi hotel və hostellərin tikintisi böyük əhəmiyyət daşıyır.

Ölkədə insanlar arasında ekoturizmlə bağlı maarifləndirmə işlərinin aparılması bu sahədə atılacaq addımlar içərsində əsas məqsəd olmalıdır. Son dövrlər ölkəmizdə əsasən şəhər,işgüzar, beynəlxalq yarışlar və s. əlaqəli turizmə üstünlük verilir. Bir neçə ildir təşkil olunan beynəlxalq tədbirlər, bir sıra irimiqyaslı tədbirlərə edilən ev sahibliyi ölkəmizi dünya miqyasında tanıtmaq baxımından əhəmiyyətli rol oynayır. Bununla həm ölkəyə gələn turistlərin sayı, həm də coğrafiyası genişlənmişdir. Bunlar sevindirici hallar olsa da, ekoturizm imkanlarından o dərəcədə faydalana bilməmişik.

Ekoturizmin əsas obyektlərindən sayılan milli parklara ciddi önəm vermək lazımdır. 2003-cü ildən bəri ölkəmizdə bir sıra milli parklar yaradılmışdır. Hazırda 10 milli parkımız var ki, bu parklar da Azərbaycan ərazisinin təxminən 4 faizini təşkil edir. Milli parklar xüsusi şəkildə mühafizə olunurlar. Təbii obyektləri qorumaq məqsədilə yaradılan milli parklarda qoruqlardan fərqli olaraq turistlərin gəzintisinə icazə verilir. Lakin milli parklarımızda ekoturizm infrastrukturu çox aşağı səviyyədədir. Bir sıra xarici ölkələrdə milli parkların elektron xəritələri hazırlanır, parklarda turistlərin hərəkəti üçün hər cür şəraitlər yaradılır. Ölkəmizdə isə milli parklarda çalışan peşəkar bələdçilərimizin saylarının azlığı və ya yox dərəcədə olması, eyni zamanda turistlərin təhlükəsizliyinin təmin edilməsi məsələlərinin həlli yolunda addımlar atılmalıdır (Şəkil 5.). (https://report.az/en/tourism/ecotourism-becomes-one-of-main-types-of-sustainable-tourism-in-azerbaijan/).

**Şəkil 5: AR-nın xəritəsi və ölkə ərazisində yerləşən əsas turizm bölgələri**

| Tarixi abidələr | Şəhər və kəndlər | Milli parklar və təbiət gözəllikləri | |
|---|---|---|---|
| ▪ Atəşgah | ▪ Balakən | ▪ Abşeron yarımadası[1] | ▪ Nabran çimərliyi |
| ▪ Naxçıvan məqbərəsi | ▪ İsmayıllı | ▪ Ağgöl | ▪ Samur–Yalama |
| ▪ Ordubad Qoruğu | ▪ Qax | ▪ Altıağac | ▪ Şahdağ |
| ▪ Qobustan | ▪ Qəbələ | ▪ Göygöl | ▪ Şirvan |
| ▪ Xan Sarayı | ▪ Quba (o cümlədən Xınalıq) | ▪ Hirkan | ▪ Tufandağ |
| ▪ Kiş məbədi | ▪ Şəki | ▪ Lökbatan palçıq vulkanları | ▪ Zəngəzur |
| ▪ Əshabi-Kəhf | | | |
| ▪ Yanardağ | | | |




**Mənbə**: AR-da ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında flora və faunanın nə dərəcədə zəngin olduğu hamıya məlumdur. Bu ərazilərdə enliyarpaqlı meşələr, meşə-çöl bitkiləri, alp, subalp çəmənlikləri, heyvanlar aləmindən isə dələlər, qonur ayılar, qartal, çöl donuzları, dağ cüyür və keçiləri geniş yayılıb. Kəlbəcər və Laçın rayonları öz tarixi memarlıq abidələləri, zəngin mineral suları, termal bulaqlar ilə də zəngindilər.  Mübaliğəsiz demək olar ki, yaxın gələcəkdə bölgədə bu sahələrdə fəaliyyətləri inkişaf etdirə biləcəyik: Alpinizm və dağa dırmanma, yaşıl turizm, koqnitiv turizm, arxeoloji turizm, tibbi turizm və rekreasiya daxil olmaqla ekoturizm.

Bu fəaliyyətləri inkişafına nail olmaq üçün də təbii ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində təmir, bərpa və yenidənqurma işlərinə ciddi önəm verilməli, infrastrukturun yaxşılaşdırılması üçün əhəmiyyətli addımlar

atılmalıdır. Bunlar həm bölgənin daha da canlanması, həm də turizmin inkişafı baxımından ilkin məqsədlərdən hesab olunmalıdır.

Təbii ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm imkanlarından tam istifadə etmək yalnız üç əsas amil təmin edildikdən sonra mümkün olacaq:

- təhlükəsizlik;
- əhalinin geri qayıtması;
- infrastrukturun yaradılması.

Şübhə yoxdur ki, bütün bu məsələlər öz həllini tapdıqdan sonra Qarabağ regionu çox qısa müddət ərzində Azərbaycanın turizm sektorunda lider mövqeyə malik regionu olacaq. Əminliklə demək olar ki, Qarabağ regionu regional, daha sonra isə qlobal əhəmiyyət kəsb edən ekoturizm mərkəzinə çevriləcək. Gözəl turizm məkanları olan Şuşa, Laçın və Kəlbəcərdə dağ turizmi, ekoturizm, müalicə və mədəni turizm potensialından istifadə etməklə Qarabağın iqtisadi dirçəlişinə töhfə vermək olar.

21 min hektardan çox ərazini əhatə edən Laçın dövlət yasaqlığı zəngin flora (qaya keçisi, çöl donuzu, cüyür və s.) və faunası ( Qırmızı palıd) ilə Laçının rekreasiya və turizm imkanlarını kifayət qədər genişləndirir. Ermənistanla sərhəddə yerləşən Qaragöl dövlət təbiət qoruğu mühüm hidroloji və təsərrüfat əhəmiyyətinə malikdir. Qoruğun ərazisində yerləşən Qaragöl dəniz səviyyəsindən 2658 m hündürlükdədir. 30 illik işğal qoruğa da mənfi təsirlər göstərmiş, bitki örtüyü korlanmışdır. Eyni aqibəti həmçinin Zəngilan rayonu ərazisində yerləşən və nadir Şərq çinarı qorunub saxlanan Bəsitçay dövlət təbiət qoruğu da yaşamışdır.

Qarabağ meşələri və hidroloji ehtiyatları ilə də çox zəngindir. Relyefi əsasən dağlıq olan bölgənin meşələri təxminən 187.7 min ha sahəni əhatə edir. Bəsitçay dövlət qoruğu çinar meşəliyi ilə əhatə olunmuşdur ki, bu meşələr qoruğun ərazisinin 100 hektarını tutur. Laçın dövlət yasaqlığının ərazisinin 34.5 faizi və ya 7369 ha-ı meşələrdən ibarətdir. Daşaltı yasaqlığında erməni vəhşiliyinə məruz qalmış Topxana

meşəsi yerləşir. Bu meşə sahələri işğal altında olduğu müddətdə yandırılmış, dağıdılmış, flora və faunası məhv edilmişdir.

Bölgənin çayları əsasən qar və yağış suları ilə qidalanır və suvarmada geniş istifadə edilir. Tərtər çay öz mənbəyini Kəlbəcər rayonu ərazisindəki yüksəkliklərdən götürür. Çayın üzərində Sərsəng su anbarı yerləşir. Ermənilər quraqlıq zamanı çayın qarşısını kəsərək Ağdam, Tərtər,Goranboy, Yevlax, Bərdə və Ağcabədi rayonları ərazisinə keçməsinə imkan verməyərək əhalini sudan məhrum edirdilər. İşğal nəticəsində 100 min ha sahəyə suvarma suyunun verilməməsi ciddi zərərlər törətmişdir. Mənbəyini Ermənistan ərazisindən götürən Bərguşad (Bazarçay) çayı məişət tullantıları səbəbilə çirklənmiş, zəngin balıq ehtiyatları talan olunmuşdur. Bundan başqa Xaçınçay, Həkəri çayı, Oxçuçay, Qarqar çayı və digər su hövzələrinə də işğal dövründə ekoloji cəhətdən ciddi ziyan vurulmuşdur. Müasir dövrdə qlobal iqlim dəyişikliklərini, daha dəqiq desək, qlobal istiləşmə, torpaqların səhralaşması və içməli su çatışmazlığı problemlərini nəzərə alsaq Qarabağda ekologiyaya dəymiş ziyanın nə dərəcədə böyük olduğunu müşahidə etmiş olarıq. Bu, ekoturizm inkişafına da ciddi zərbədir desək yanılmarıq (*Azərbaycan Milli Elmlər Akademiyası, "Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi" mövzusunda onlayn konfransın materialları. Bakı: "Elm" nəşriyyatı, 2021, 156 səh.*)

Bütün bunları nəzərə alaraq, əminliklə söyləmək olar ki, azad olunmuş torpaqlarda meşələrin və biomüxtəlifliyin bərpası ekoturizmin inkişafında vacib istiqamətlərdir. Eyni zamanda, ekoturizmin inkişafı üçün su ehtiyatlarından səmərəli istifadəsi və qlobal iqlim dəyişikliklərinə adoptasiya tədbirlərinin görülməsi əsas prioritetlər olmalıdır.

İşğaldan azad edilmiş torpaqlarda mütləq şəkildə inkişaf etdirilməli digər bir turizm sahəsi aqroturizmdir. Aqroturizm - turizminin bir sahəsi olmaqla, turistlərin təsərrüfatçılıq proseslərinin müşahidə edilməsi və ya iştrakının təmin olunmasıdır. Aqroturizmi, kənd təsərrüfatı ilə turizmin qarışıq modeli kimi təsvir etmək olar. Azərbaycanda məşğulluq baxımından kənd təsərrüfatının böyük payı vardır. Beləki DSK-i tərəfindən verilən məlumatlara əsasən 2016-2020-ci illər ərzində məşğul

əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsünə diqqət yetirsək görərik ki, ən çox pay ortalama olaraq 36.3 faizlə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində olmuşdur. Bu göstəricidə ən az pay isə 1.3 faizlə nəqliyyat və rabitə sektorundadır (Cədvəl 10).

**Cədvəl 10: Azərbaycanda məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü (2016-2020)**

| İllər | Cəmi | o cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | sənaye | kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | tikinti | nəqliyyat və anbar təsərrüfatı | informasiya və rabitə | digər sahələr |
| **Faizlə** | | | | | | | |
| **2016** | 100.0 | 7.1 | 36.3 | 7.2 | 4.2 | 1.3 | 43.9 |
| **2017** | 100.0 | 7.2 | 36.4 | 7.2 | 4.2 | 1.3 | 43.7 |
| **2018** | 100.0 | 7.4 | 36.3 | 7.3 | 4.2 | 1.3 | 43.5 |
| **2019** | 100.0 | 7.4 | 36.0 | 7.4 | 4.2 | 1.3 | 43.7 |
| **2020** | 100.0 | 7.3 | 36.3 | 7.3 | 4.2 | 1.3 | 43.6 |

**Mənbə**: DSK, https://www.stat.gov.az/source/agriculture/

Azərbaycanda ən uğrlu aqroturizm modellərindən biri kimi, "Citrus Valley" təsərrüfatı bazasında yaradılmış turizm mərkəzini misal göstərmək olar. "Citrus Valley" təsərrüfatı 2006-cı ildə Lənkəran rayonunun İsti Su qəsəbəsində sahibkar xanım Rəftarə Şükürova tərəfindən təsis edilmişdi. Ümumi sahəsi 15 hektar olan təsərrüfatda kivi, feyxoa, limon, mandarin, portağal, alça və az sayda gilas meyvələri yetişdirilir. Təsərrüfat yetişdirilmiş məhsulun satışı ilə yanaşı, kiçik emal müəssisəsi kimi müəyyən meyvə növlərinin emalını və Rusiya bazarlarına ixracını həyata keçirir. "Citrus Valley" əsasən, eqzotik turşu və mürəbbələrin istehsalına üstünlük verilir və daxili bazarı fərqli məhsul çeşidləri təmin etməyə üstünlük verir. Təsərrüfatın məhsulları, "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkil etdiyi "Kənddən Şəhərə" yarmarkalarında alıcılar tərəfindən yüksək rəğbətlə qarşılanmışdı (*https://az.trend.az/business/3556487.html*).

Aqroturizm bütün turizm sektoruna yeni imkanlar gətirir, insanlara yaşıl və sakit mühitləri, kənd həyatını və şəhər həyatında asanlıqla tapılmayan kənd təsərrüfatı təcrübələrini yaşamaq fürsəti təqdim edir, turizmin bu növü həm də fermerlərin böyük investisiyalarına ehtiyac duymadan kiçik yatırımlarla onlara yeni gəlir mənbələri yaratmağa imkan verən sahədir. Bu səbəbdən Azərbaycanda fəaliyyət göstərən nümunəvi təsərrüfatlar da turizmi təmin etməklə aqroturizmin canlanmasına öz töhfələrini verirlər. Turizm imkanları ilə zəngin olan Qarabağ bölgəsinə böyük qayıdış planı çərçivəsində "Ağıllı kənd" və "Ağıllı kənd təsərrüfatı" layihə və konsepsiyalarının həyata keçirilməsi yaxın gələcəkdə aqroturizmin inkişafına daha da təkan verəcək (https://www.eeas.europa.eu/node/111126_en).

Ekoturizm və aqroturizm turizmin yeni və kifayət qədər perspektivli istiqamətləridir. Ölkəmizdə ekoturizmin getdikcə populyarlaşması təbiidir, çünki bunun üçün hər cür şərait, ilk növbədə unikal coğrafiya və təbiət mövcuddur. Azərbaycan ekoturizmin inkişafı üçün bütün zəruri şeylərə - unikal və rəngarəng təbiətə, gözəl mətbəxə və inkişaf etmiş xalq sənətkarlığına malikdir. Bu istiqamət həm ölkə sakinləri, həm də əcnəbilər üçün çox cəlbedicidir və bu, turizm sektoruna böyük investisiyaların qoyulmasını zəruri edir. Həmçinin aqroturizm seqmentinə qlobal səviyyədə böyük turizm sənayesi şirkətləri böyük sərmayələr qoyurlar. Bu sahəyə yerli və xarici investorların cəlb edilməsi üçün kompleks tədbirlər görülməlidir. Müvafiq sahələrdə sahibkarların və qurumların təşviqi ilə yanaşı, satış kanallarının genişləndirilməsinə ciddi ehtiyac var. Bu kontekstdə turoperatorlar maraqlı paketlər və yeni marketinq təlimatları hazırlamalıdırlar. Bu gün ölkələr turistlərin cəlb edilməsinə ciddi yanaşırlar. Bu kontekstdə turizm oyunçuları qlobal rəqabətdə sağ qalmaq üçün yeni çağırışlar və tələblərlə ayaqlaşmalıdırlar (https://www.azernews.az/business/139133.html).

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Turizm müasir dövrün ən əhəmiyyətli və gəlirli xidmət sahələrindən biridir. Sözsüz ki, turizmin daha yaxşı inkişafına səbəb kimi əsas olan ölkənin turizm potensialıdır. Turizm potensialı dedikdə buraya ölkənin təbii-coğrafi mövqeyi, tarixi-memarlıq abidələri, təbii obyektləri və bütün bunlardan əlavə yaradılması mühüm olan, müasir tələblərə cavab verən hotel və restoranlar şəbəkəsi, preşəkar tələblərə cavab verən işçi qüvvəsi nəzərdə tutulur. Ölkəmizdə turizmin inkişafı üçün yetərincə potensial vardır. Tətqiqatda da göründüyü kimi istər təbii-coğrafi şərait, istərsə də təbii ehtiyatlar baxımından ölkəmiz çox zəngindir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialı da bu sahənin daha da inkişaf etməsinə gətirib çıxara bilər. Bu inkişafın əsasında isə sözsüz ki, bu bölgəyə cəlb olunacaq investisiyalar dayanır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmlə bağlı həyata keçilə biləcək perspektiv investisiya layihələri ölkə rəhbərliyinin də marağındadır. Araşdırma zamanı göründüyü kimi ölkənin bir sıra dövlət və özəl qurumları, hökumət orqanları Qarabağda investisiya layihələrinin həyata keçirilməsi üçün lazım olan hər bir şəraiti yaratmağa çalışır, bunun üçün qanun layihələri qəbul edilir, turizmlə bağlı olan bir sıra əskikliklərin aradan qaldırılması üçün addımlar atır.

Bu araşdırmanın nəticələri Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində vurulan ziyanın və təhlükələrin miqyaslarının nə qədər böyük olduğunu əyani şəkildə nümayiş etdirir. İlkin hesablamalara görə işğal nəticəsində Azərbaycan öz iqtisadi potensialının 16 faizini itirmiş və ölkəyə 60 milyard ABŞ dollarından artıq ziyan dəymişdir. Oğurlanmış və məhv edilmiş tarixi-mədəni sərvətlərimizin dəyərini isə pulla qiymətləndirmək mümkün deyildir. Ermənistan "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycan sərvətlərini talamışdır.

Turizmin inkişafı və investisiyaların cəlb edilməsi ilə bağlı problemlərə nəzər saldıq da gördük ki, azad olunmuş torpaqlara turizmlə əlaqəli investisiya layihələrinin həyata keçirilməsi zamanı aşağıdakı problemlərlə üzləşilə bilər:

- Münaqişə bölgəsinə investisiyaların yatırılma risklərinin yüksək olması. Yenidən münaqişənin yaranma ehtimalı ilə investisiya qoyulacaq yeni biznes sahələrində sərmayələrin batması ehtimalı, sahibkarların müflis olma riskləri gözlənilən problemlər içərisindədir;
- İşğal dövrü ərzində Qarabağda turizm infrastrukturunun dağıldılması, bəzi turizm əhəmiyyətli obyektlərin və ehtiyatların tamamilə məhvi və istismar olunması. Turizm əhəmiyyətli Bəsitçay dövlət qoruğunun məhv olması, Kəlbəcərdəki "İstisu" kurortunun dağıdılması, bölgədə yerləşən meşələrin, buradakı ağacların qırılması ərazidə ekoturizmin infrastrukturu baxımından ciddi problemlərə gətirib çıxarır ;
- İnvestisiyalardan qısa müddətdə səmərəliliyinin əldə olunması problemləri. Tədqiqat zamanı da müşahidə etdiyimiz kimi son 5 il ərzində ölkədə turizmə yatırılan investisiyalarda və beynəlxalq turizm gəlirlərində azalma tendensiyası mövcuddur (bax: Qrafik 2.3 və Qrafik 2.7). Azad olunmuş torpaqlarda turizm infrastrukturuna dəymiş zərərlər, bölgədə əhalinin tam məşkunlaşmaması, nəticədə turizm obyektlərinə səfər edə biləcək turist sayının azlığı səbəbilə qısa müddət ərzində yatırılacaq investisiyaların çox da yüksək səmərə yaratmayacağı problemlərini ortaya qoyur;
- İnvestisiya mühitinin cəlbediciliyinin yüksəldilməsi problemləri. Şəffaf maliyyə mühiti, idarəetmə mədəniyyətinin formalaşması problemləri, yatırılan investisiyaların böyük hissəsinin neft sektoruna olması və turizm mühitinin bu sektorla müqayisədə çox az cəlbedici olması kimi problemlər mövcuddur;
- Turizm sektorunda kadr çatışmazlığı problemləri. Azərbaycanda Turizm və Menecment Universiteti (ATMU), eyni zamanda, bir sıra tədris obyektlərində turizm ixtisası üzrə kadrlar hazırlanır. Təkcə ATMU-da 1527 nəfər tələbə təhsil almaqdadır. Lakin bununla belə turizm sektorunda çalışan

peşəkar işçi sayında azalma müşahidə olunmuşdur (bax:cədvəl 8). Bu da turizm sahəsində peşəkar kadrların çatışmazlığı problemini, həmçinin özlüyündə turizm təhsili ilə bağlı problemləri qabardır.

Bu nəticələrin ümumiləşdirilməsi müəyyən məhdudiyyətlərdən asılıdır. Belə ki, bu araşdırmada müəyyən olundur ki, DSK-nin Azərbaycanın qeyri-neft sektoruna daxil olan BXİ-nin ölkələr üzrə məbləği haqqında məlumatları təqdim etsə də, həmin vəsaitlərin yönəldildiyi sahələr haqqında məlumat açıq deyil. AR-nın Mərkəzi Bankı da illik tədiyə balansı ilə bağlı məlumatında qeyri-neft sektoruna cəlb edilən BXİ-nin yalnız ümumi məbləğini təqdim edir, amma sahələr və layihələr barədə məlumat vermir. Eyni zamanda, bu araşdırmada Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına həm turizm sektoru baxımından, həm də ümumi iqtisadi-ekoloji baxımından dəymiş zərəri dəqiq olaraq qiymətləndirmək mümkün olmadı.

Qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş ərazinin turizm potensialı Qarabağ bölgəsində biznes proseslərini sürətləndirmək üçün yeni imkanlar açır. Burada təbiətin gözəl və füsunkar guşəsi, mineral müalicə üçün içməli su turistlər üçün istirahət potensialına malikdir. Bu tədqiqatın tapıntıları əsasında gələcək təcrübə üçün bir neçə tövsiyyələri həyata keçirmək olar:

- Kəlbəcər və Zəngilandakı isti bulaqlar, Şuşadakı spa terapiya mərkəzi, potensial kanat yolu, Xudafərin körpüsü, Azıx mağaraları yeni turizm marşrutları üçün cəlbedici olacaqdır;
- Dağ turizminin inkişafı və yeni investisiyaların cəlbi üçün beynəlxalq təcrübədə, araşdırma zamanı diqqət çəkilmiş İtaliya təcrübəsindən istifadə etmək mümkündür;
- Qarabağda xalça turu təşkil etmək çox maraqlı olardı;
- Turşsu laylasının müalicəsi və sanatoriyaların potensialı çərçivəsində böyük turizm kompleksi turizm klasterlərinin yaradılmasını mümkün edir;
- Ekoloji ehtiyatların, o cümlədən meşələrin, parkların, qoruq və yasaqlıqların, hidroloji obyektlərin bərpası üçün addımlar atılması, bunlara yatırılacaq olan investisiyaların həm ekoturizm baxımından, həm qlobal ətraf

mühit problemlərinə qarşı görülən mübarizə tədbirləri baxımından çox faydalı olacaqdır;

- Turizm, xüsusən də aqroturizm sahəsi üzrə maarifləndirmə tədbirlərinin aparılması, bununla bağlı bölgədə Türkiyə təcrübəsinə də uyğun olaraq tədris metodikalarının həyata keçirilməsi hər il yüzlərlə yeni peşəkar kadrların formalaşmasına gətirib çıxara bilər;
- Aqroturistlərin yerləşdirilməsi üçün ferma və həyatyanı sahələrdə ayrıca otaqlarda,xüsusi kənd evlərində,kənd mehmanxanalarında addımlar atılmalı, aqroturizmlə bağlı investisiya yatırımlarının bu məqsədlə həyata keçirilməsinə diqqət yetirilməlidir;
- Həm İran, həm də Ermənistanla sərhəd olan Zəngilan rayonunun bu coğrafı mövqeyindən faydalanmaq mümkündür. Bu rayon ərazisindən həmçinin Türkiyəyə və Naxçıvan Muxtar Respublikasına dəmir və avtomobil yollarının çəkilməsi, yolboyu azulduzlu və ya ulduzsuz hotel və restoranların qurulması, rayon ərazisində böyük şirkətlər üçün yeni iş imkanlarının yaradılması ilə əraziyə turist axınını artırmış ola bilərik. Bununla da həm xarici, həm də yerli investisiyaların Zəngilan rayonuna cəlb edə və bu ərazilərdə din, ekologiya, aqroturizm və digər turizm sektorları üçün ucuz turizm biznesi imkanlarını inkişaf etdirməklə böyük miqdarda gəlir əldə edə bilərik.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. AMEA, (2021). “Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi” mövzusunda onlayn konfransın materialları. Bakı: “Elm” nəşriyyatı, 156 səh
2. AR-da ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi (2016)
3. Bayramov V., (2017). “Turizm sektorunun inkişaf perspektivləri”, Bakı, “CESD Tədqiqat qrupu” - 26 səh
4. Soltanova H. (2015), “AR-da turizm və onun inkişafı”. Bakı, “AzTU-nun mətbəəsi”, 475- səh.

## İngilis dilində

1. Romeo R., Russo, L., Parisi F., Notarianni M., Manuelli S. və Carvao S., UNWTO.(2021). “Mountain tourism – Towards a more sustainable path”. Roma, “FAO” səh.49-50.

## İnternet resursları

1. http://ikisahil.com/post/181158-prezinent-ilham-eliyev-azad-edilmish-bolgelerin-iqtisadi-potensiali-kend-teserrufati-turizm-potensiali-chox-boyukdur (2020)
2. https://fed.az/az/hadise/qarabagi-talayan-xarici-sirketler-siyahi-43588 (2018)
3. https://www.unwto.org/tourism-data/international-tourism-and-covid-19 (2022)
4. https://www.e-unwto.org/doi/pdf/10.18111/9789284419401 (2020)
5. https://nk.gov.az/az/document/4367/ (2020)
6. https://www.virtualkarabakh.az/en/post-item/26/45/qarabag-tebieti.html (2020)
7. https://www.ssu-conferenceproceedings.edu.az/pdf/2021-2.pdf (2021)
8. https://www.ceicdata.com/en/azerbaijan/tourism-statistics (2020)
9. https://www.unwto.org/tourism-statistics-data (2020)
10. https://www.facebook.com/USABaki/photos (2020)

11. https://e-qanun.az/

12. https://www.aznews.az/news/inwork/271246.html (2021)

13. https://banker.az/turkiy%C9%99-sirk%C9%99ti-445-min-manata-qarabagda-turizm-potensialini-qiym%C9%99tl%C9%99ndir%C9%99c%C9%99k/ (2022)

14. https://report.az/turizm/qarabagin-turizm-potensiali-turkiyede-emitt-2022-sergisinde-teblig-olunur/ (2022)

15. https://azertag.az/en/xeber/1649603 (2020)

16. https://travelnews.az/tag/gulf-travel-show/ (2020)

17. https://president.az/ (2021)

18. https://www.stat.gov.az/ (2020)

19. https://www.eeas.europa.eu/node/111126_en (2022)

20. https://report.az/en/tourism/ecotourism-becomes-one-of-main-types-of-sustainable-tourism-in-azerbaijan/ (2021)

21. https://tourism.gov.az/

22. https://www.azernews.az/business/139133.html (2018)

23. https://az.trend.az/business/3556487.html (2022)

24. https://www.geostat.ge/en/modules/categories/102/inbound-tourism (2020)

25. https://www.myswitzerland.com/en/destinations/davos

## Cədvəllərin siyahısı


**Cədvəl 1:** Turizmin inkişafında rol oynayan iqtisadi amillər....................................................14
**Cədvəl 2:** Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarının yeni bölgüsü...........................................................................................................................21
**Cədvəl 3:** Qəbul edilmiş və göndərilmiş turistlər .....................................................................28
**Cədvəl 4:** Turistləri yerləşdirmə və ictimai iaşə (turizm) sektorunun 2016-2020-ci il üçün əsas göstəriciləri.....................................................................................................................32
**Cədvəl 5:** 2022-ci ilin yanvar ayında ən çox əcnəbinin gəldiyi 5 ölkə.....................................33
**Cədvəl 6:** 2009-2018-ci illərdə xarici investisiyaların dinamikası...........................................35
**Cədvəl 7:** 2014-2019-cu illər ərzində səyahət agentlikləri və turoperatorların əsas göstəriciləri.....................................................................................................................37
**Cədvəl 8:** Səyahət agentlikləri və turoperator fəaliyyəti ilə məşğul olan müəssisələrdə işçilərin sayı (2015-2020)....................................................................................................................45
**Cədvəl 9:** Azərbaycan Respublikası və Gürcüstan Respublikasına səfər etmiş turistlərin sayı, nəfərlə ( 2016-2020)...........................................................................................................57
**Cədvəl 10:** Azərbaycanda məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü (2016-2020)..........................................................................................................................63


## Qrafiklərin siyahısı


**Qrafik 1:** 2008-2019-cu illər ərzində Azərbaycanda beynəlxalq turizmə olan xərclər............................................................................................................................28
**Qrafik 2:** 2008-2019-cu illər ərzində Azərbaycanda beynəlxalq turizmə olan xərclərin ümumi idxalda payı.................................................................................................................29
**Qrafik 3:** 2008-2019-cu illər ərzində Azərbaycanda beynəlxalq turizmdən olan gəlirlər..........................................................................................................................29
**Qrafik 4:** 2008-2019-cu illər ərzində Azərbaycanda beynəlxalq turizmdən olan gəlirlərin ümumi ixracda payı..................................................................................................................30
**Qrafik 5:** 2019, 2021 və 2022-ci illərdə ölkəyə gələn turistlərin aylıq tendesiyası.....................................................................................................................33
**Qrafik 6:** 2019-2020-ci illərdə turizm xidmətləri dövriyyəsi..................................................34
**Qrafik 7:** 2009-2018-ci illər ərzində turizmə qoyulan investisiyaların həcmi..........................................................................................................................36


## Şəkillərin siyahısı


**Şəkil 1:** Erməni eko-terroru. Mineral ehtiyatların qanunsuz şəkildə istismar olunması....................................................................................................................43
**Şəkil 2:** Ağdam rayonunun işğalda altında qalmış və işğalda olmuyan hissələri.......................................................................................................................44
**Şəkil 3:** Castelmezzano turizm bölgəsi, İtaliya.......................................................................53
**Şəkil 4:** Şuşa şəhəri və Davos kurortu.....................................................................................54
**Şəkil 5:** AR-nın xəritəsi və ölkə ərazisində yerləşən əsas turizm bölgələri.......................................................................................................................60

**Diaqramların siyahısı**

**Diaqram 1:** 2020-ci ildə Azərbaycan daxili turizmində ziyarətlərin məqsədlərə görə bölgüsü........................................................................................................................31

**Sxemlərin siyahısı**

**Sxem 1:** Turizmin müəyyən kateqoriyalara uyğun təsnifatı................................................14